

Alternativ enerji erasında Azərbaycanın potensialı

15

# Çətin söhbət:



# NATO-Rusiya görüşü

8



Səs

№ 007 (6448) 14 yanvar 2022-ci il. Qiymәti 60 qәpik

# Prezidentin İrəvana mesajları: vaxt daralır, Bakı gözləmək fikrində deyil



İlham Əliyev sözlərini əməli fəaliyyətləri ilə sübuta yetirən dövlət başçısıdır və eyni zamanda, bundan sonra hər hansı müddəti də gözləmək fikrində olmadığını açıq şəkildə bəyan etmiş oldu

4

## "Prezidentin müsahibəsi Ermənistana və onun havadarlarına ciddi mesajdır"

7



"Dövlət başçısı İlham Əliyevin yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsi bir daha ötən ildə Azərbaycanın sosial...

# "Real" dünyanın ən yaxşısıdır"




"Real"ın futbolçusu Kərim Benzema İspaniya Superkubokunun yarımfinalında "Barselona"ya qalib gəldikləri matç (3:2) barədə danışıb. Nüfuzlu AS nəşrinin yazdığına görə, 33 yaşlı hücumçu...

16

## Erməni redaktor: "Rusların üzünə tüpürmək və bayraqlarını yandırmaq lazımdır"

6



ABŞ-dan fərqli olaraq Rusiyanın prezidenti Ermənistanın baş prokuroruna medal təqdim etdi, hansı ki, o (baş prokuror) daxil olmaqla digər onun kimiləri bütün rusiyapərəst xadimlərinə, hətta KTMT-nin baş katibinə (Yuri Xaçaturovu nəzərdə tutur) qarşı...



11

## Azərbaycan pandemiyaya qarşı səmərəli mübarizə aparan nümunəvi ölkədir



## DİQQƏT: Azərbaycanda quş qripi yayılıb?

13

"Bəzi ölkələrdən Azərbaycana quş əti məhsulları idxalına qadağa qoyulub. Bu beynəlxalq bir qurumun məlumatı...



## Gənclər niyə intihara meyillidir?

16

Ümumiyyətlə intihar edən və ya buna cəhd edən şəxslər ölmək istədikləri üçün deyil, artıq onlara yaşamaq...

# "Bu stansiya

## Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək"

## Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib

**Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək:**

"Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Gülüstan sarayında Azərbaycanda inşa ediləcək yeni külək elektrik stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu, çox gözəl hadisədir. Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında icra müqaviləsi imzalanmışdır. Faktiki olaraq stansiyanın tikintisi ilə bağlı qərar verilmişdir və son bir il ərzində fəal iş aparılaraq bu gün artıq biz bu gözəl günü birlikdə qeyd edirik. Bu stansiya Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda, çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaq. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planlarımızda olan məsələlər də öz həllini tapacaq. Təbii ki, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaqdır.

Mən şadam ki, bizim bərpaolunan bu böyük enerji layihəsinin icraçısı və investoru qardaş Səudiyyə Ərəbistanının şirkətidir. Bildiyiniz kimi, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında çox sıx dostluq və qardaşlıq münasibətləri vardır. Biz müstəqillik dövründə bu əlaqələrin inkişaf etdirilməsində fəal çalışmışıq. Mən Səudiyyə Ərəbistanı Krallığına səfərlərimi böyük məmnuniyyətlə xatırlayıram. Kral həzrətləri, Vəliəhd həzrətləri ilə keçirdiyim görüşlər bir daha bizim aramızdakı dostluq və qardaşlığın təzahürüdür. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Təbii ki, bütün Azərbaycan xalqı Səudiyyə Ərəbistanının Azərbaycana işğal dövründə göstərdiyi siyasi dəstəkdən xəbərdardır. Səudiyyə Ərəbistanı o nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla ümumiyyətlə diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstəkdir və qardaşlığın əlamətidir. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir."

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan həm daxili tələbatı tam ödəyir, eyni zamanda, bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir: "Qonşu ölkələrlə bizi birləşdirən yüksəkgərginlikli enerji xətləri bu imkanı bizə yaradır, lazım olarsa, yeni xətlər də çəkilər. Çünki region ölkələrində və eyni zamanda, Avropada elektrik enerjisinə tələbat artır. Bəzi ölkələr nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərar qəbul ediblər, biz, eyni zamanda, kömürlə işləyən elektrik stansiyalarının bağlanması prosesini müşahidə edirik. Eyni zamanda, dünyanın demək olar ki, gündəliyinin ön sıralarında olan "Yaşıl gündəliyi" də təsdiq edilib və biz öz növbəmizdə işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan etmişik. Artıq bir neçə su elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var.










Bir sözlə, bu külək elektrik stansiyasının yaradılması bir çox mənalarda olduqca önəmli və əhəmiyyətli layihədir. Bu, gözəl göstəricidir. Digər potensial investorlar üçün də bir siqnaldır ki, onlar da vaxt itirmədən müəyyən addımlar atsınlar. Onu da bildirməliyəm ki, Azərbaycanın bərpaolunan enerji potensialına dünyanın böyük şirkətləri tərəfindən böyük maraq vardır. Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə aparıcı şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir.

*Ardı Səh. 3*

# "Bu stansiya
## Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək"

## Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib

Əvvəli Səh. 2

Həm ölkəmizdə sabitlik, əmin-amanlıq, ölkəmizin inkişafı ilə bağlı dünyada çox müsbət fikirlər, yəni, həqiqəti əks etdirən fikirlər, siyasətimizin proqnozlaşdırılması və eyni zamanda, güclü sənaye potensialı, iqtisadi müstəqillik, enerji təhlükəsizliyinin təmin edilməsi və hazırlıqlı kadr potensialı var. Yəni, bunlar əsas amillərdir. Bu amillər istənilən investor üçün böyük əhəmiyyət kəsb edir."

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdüləziz bin Salman əl Səud Prezident İlham Əliyevin rəhbərlik keyfiyyətləri sayəsində OPEC+ çərçivəsində əldə edilən uğurların əhəmiyyətini vurğulayıb. O, son bir neçə il ərzində dünya neft sənayesində və OPEC+ formatında ölkələrimiz arasında güclü müttəfiqlik, tərəfdaşlıq və dostluq əlaqələrinin qurulduğunu qeyd etdi. Nazir azərbaycanlı həmkarı ilə də bu sahədə fəal iş apardıqlarını bildirib:

"Azərbaycan və Səudiyyə Ərəbistanı arasında uzun müddət ərzində güclü diplomatik və iqtisadi münasibətlər olub. Krallıq 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Bu münasibətlər müasir Azərbaycan dövlətinin banisi, Zati-aliləri mərhum Prezident Heydər Əliyevin 1994-cü ildə Ər-Riyada səfəri ilə daha da gücləndirilib. Allah ona rəhmət eləsin!.

Ölkələrimiz arasında bir çox oxşarlıqlar var. Hər iki ölkə dinamik və qabaqcıl ölkə olaraq, iqtisadiyyat və cəmiyyətimizin müasirləşdirilməsi və transformasiyası yoluna qədəm qoyublar. Odlar yurdu Azərbaycan birmənalı şəkildə müasir karbohidrogen sənayesinin beşiyi olduğunu iddia edə bilər, çünki hələ XIX əsrdə burada quyulardan neft hasil edilirdi. Hazırda biz bu gün bütün dünya ilə birgə iqlim dəyişikliyinə qarşı mübarizənin aparılmasında və qlobal istiləşmənin fəsadlarının qarşısının alınmasında bir araya gələrək ortaq və mühüm marağa sahibik. "ACWA Power" 2030-cu ilə qədər Səudiyyə Ərəbistanında elektrik enerjisinə olan daxili tələbatın 50 faizini məhz bərpaolunan enerji mənbələri sayəsində təmin etmək üçün külək və günəş enerjisi potensialını artıraraq Krallığımızın bərpaolunan enerji sahəsində təşəbbüslərinin önündə olub. Bu gün qeyd etdiyimiz kimi Azərbaycana yatırılan 300 milyon dollara yaxın sərmayə "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir. Bildiyiniz kimi, bu enerji stansiyasının gücü külək hesabına əldə olunan 240 meqavat olacaq ki, bunun da sayəsində 300 min evin elektrik enerjisi təmin ediləcək. Eyni zamanda, 220 milyon kubmetr qaza qənaət olunacaq və biz il ərzində 400 min ton karbon qazının atmosferə atılmasını azaldacağıq. Bununla biz Azərbaycanın 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunması məqsədinə əhəmiyyətli dərəcədə töhfə vermiş olacağıq.

Əlavə olaraq "ACWA Power" şirkəti Azərbaycanda dənizdə külək enerjisi stansiyasının tikilməsi layihəsi ilə əlaqədar Anlaşma memorandumu imzalayacaq ki, onun ümumi gücü təxminən 500 meqavat olacaq. İlkin mərhələdə külək enerjisindən istifadə potensialı araşdırılaraq yaşıl karbohidrogenlərin hasil edilməsindəki mümkün tətbiqi öyrəniləcək."



Mərasimdə Azərbaycanda bərpaolunan enerji sahəsində görülən işlər barədə videoçarx nümayiş etdirilib. Daha sonra Prezident İlham Əliyev və şahzadə Əbdül Əziz bin Salman Əl-Səud stansiyanın təməlini qoyublar.

# Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının energetika nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:**

- Cənab nazir, bir daha xoş gəlmisiniz. Mən həqiqətən çox məmnunam ki, siz gəlib bizim ölkəmiz, tərəfdaşlığımız, qardaşlıq münasibətlərimiz üçün mühüm olan bu tədbirdə iştirak etməyə vaxt tapmısınız. Bir daha sizdən Əlahəzrət Krala və Əlahəzrət vəliəhd şahzadəyə ən xoş salamlarımı çatdırmağı xahiş etmək istərdim.

Mən sizin ölkənin rəhbərləri ilə görüşlərimi və qardaş Səudiyyə Ərəbistanına çoxsaylı səfərlərim zamanı mənə göstərilən böyük qonaqpərvərliyi xatırlayıram. Çıxışımda qeyd etdiyim kimi, işğal illərində Səudiyyə Ərəbistanının Azərbaycana göstərdiyi davamlı dəstəyə görə minnətdarlığımı bildirmək istərdim. Biz bunu həqiqətən də yüksək qiymətləndiririk və əsl qardaşlıq, həmrəylik göstəricisi və həqiqi dəstək göstəricisi hesab edirik. Əlbəttə ki, bizim beynəlxalq təşkilatlarda, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında torpaqlarımızın işğalı ilə bağlı ədalətin bərpasına yönəlmiş birgə səylərimiz Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Torpaqlarımızın işğaldan azad olunması indi ölkə üçün yeni imkan, regionda nəhəng geosiyasi dəyişiklikdir. Bizim İkinci Qarabağ müharibəsindəki Qələbəmiz regional əməkdaşlıq, o cümlədən elektrik enerjisi istehsalı, xüsusilə bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır. Mən artıq planlarımız, potensial barədə danışdım. Hesab edirəm ki, biz artıq bu mühüm infrastruktur layihəsinin icrası zamanı gələcəyə baxaraq, nəhəng potensialımızdan istifadə



edərək maksimal dərəcədə səylərimizin necə əlaqələndirilməsini nəzərdən keçirə bilərik. Çox şadam ki, bizim nazirlə sizin yaxın münasibətləriniz var. O, mənə OPEC+ formatında və ikitərəfli əlaqələr sahəsində sizin təmaslarınız haqqında müntəzəm olaraq məlumat verir.

Mən investorları cəlb etmək məqsədimizə nail olduğumuzu yüksək qiymətləndirirəm və bu investorun bu sahədə dünyada ən aparıcı şirkətlərdən biri və qardaş ölkədən olması məni şəxsən sevindirir. Bu, bizim üçün və gələcək əməkdaşlığımız üçün çox önəmlidir. Əminəm ki, sizin bizi ziyarət etmək üçün daha çox vaxtınız olacaq. Qeyd etdiyiniz kimi bu, sizin Azərbaycana ilk səfərinizdir. Ümidvaram ki, biz sizi daha da çox görəcəyik. Bir daha xoş gəlmisiniz.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səud ölkəmizə səfərindən məmnunluq hissi keçirdiyini dedi. Qonaq özünün və rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda fəal çalışdıqlarını vurğulayaraq qarşılıqlı əməkdaşlığın daha da genişlənəcəyini bildirdi. Əbdül Əziz bin Salman Əl-Səud yaxın vaxtlarda daha geniş əlaqələri əks etdirən əməkdaşlıq müqaviləsi layihəsinin təqdim olunacağına ümidvarlığını ifadə etdi.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri əlaqələrimizin uğurla inkişaf etdiyini bildirərək "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasiminin əhəmiyyətini vurğuladı, səmərəlilik, bərpaolunan enerji mənbələri və digər aspektlər üzrə baxışlarımızın üst-üstə düşdüyünü məmnunluqla bildirdi.

# Prezidentin İrəvana mesajları:

## vaxt daralır, Bakı gözləmək fikrində deyil

**İlham Əliyev sözlərini əməli fəaliyyətləri ilə sübuta yetirən dövlət başçısıdır və eyni zamanda, bundan sonra hər hansı müddəti də gözləmək fikrində olmadığını açıq şəkildə bəyan etmiş oldu**







**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsi zamanı bir sıra əhəmiyyətli faktorlara, qarşıda dayanan vəzifə və çağırışlara toxunması ilə yanaşı, Zəngəzur dəhlizi ilə bağlı önəmli mesajlarını səsləndirdi. Söz yox ki, Zəngəzur dəhlizinin açılması perspektivləri nəinki regionumuza aid olan ölkələr, eləcə də regionla əməkdaşlıq edəcək digər ölkələr üçün də mühüm aspektləri təqdim etməkdədir.**

### Dövlət başçımız Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək uzunmüddətli nəqliyyat-infrastruktur kompleksləri barədə vurğulayır

Dəmir və avtomobil yolu ilə bağlı komponentlər isə Zəngəzur dəhlizinin əsasını, özəyini, hətta belə ifadə etsək, nüvəsini təşkil edir. Bunların ardınca elektrik xətlərinin, daha sonra isə qaz kəmərlərinin çəkilişi bütövlükdə qarşıya qoyulmuş məqsədlərin realizəsinin həm də sürətli şəkildə həyata keçiriləcəyi anonsunu verməkdədir.

Beləliklə, Prezident İlham Əliyev heç də ikitərəfli hərəkətdə olacaq adi nəqliyyat dəhlizindən bəhs etmir, hansı ki, erməni tərəfi bunu məhz həmin təsəvvürdə görür, dövlət başçımız Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə bilavasitə birləşdirəcək uzunmüddətli nəqliyyat-infrastruktur kompleksləri barədə vurğulayır.

### Laçın dəhlizi və Xankəndi Azərbaycanın nəzarətindədir!

Bu xüsusda Prezident İlham Əliyevin Laçın dəhlizi ilə də bağlı irəli sürdüyü fikirləri özündə bir sıra siqnal xarakterli mesajları ehtiva etməkdədir. Daha dəqiq desək, ölkə rəhbərimiz açıq qeyd etdi ki, Azərbaycan Laçın dəhlizindən keçən və geri dönən bütün avtomobillər barədə məlumatlıdır, həmçinin Rusiya sülhməramlı kontingentinin məsul olduqları bu ərazimizdə doğru-dürüst qaydada təhlükəsizlik tədbirləri təmin olunmazsa, Azərbaycan tərəfi oradan keçən istənilən avtomobili saxlaya bilər. Buna isə kifayət qədər əsaslar yaranır - müxtəlif xarici ölkələrdən Ermənistana, oradan isə gizli yollarla Azərbaycan şəhəri Xankəndiyə səfərlər edənlər olarsa, bu dəfə Bakı fərqli davranış göstərəcək və bunu ölkə başçımız açıq şəkildə, dəqiqliklə bəyan etdi. Hər halda, bunu Rusiya sülhməramlıları kontingenti də anlamalı, fəaliyyətlərindəki bəlli boşluqları dərhal aradan qaldırmalıdır. Necə ki, məhz Azərbaycanın tələblərindən sonra sülhməramlıların müvəqqəti yerləşdikləri ərazilərdə separatçı, qondarma rejimin əski parçaları götürülürsə, digər tələblərin də (üçtərəfli bəyanatda əks olunan bəndlərin hər biri!) realizəsi sürətlənməlidir.

Azərbaycan üçün isə qısa müddətdə, uzağı bir neçə saatda Laçın dəhlizində öz hərbçilərini, buraxılış məntəqələrini yerləşdirməsi, habelə digər gözlənilən tələbləri həyata keçirməsi heç də çətin proses deyil.

Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımazsa, onda Azərbaycanın kifayət qədər tarixi faktlara əsaslanan və bugünkü Ermənistanın ərazisinə daxil olan torpaqları ilə bağlı planları işə salına bilər

Lakin hər iki dəhlizlər barədə danışarkən diqqətləri cəlb edən daha bir önəmli fikir bütövlükdə tərəflərin - Azərbaycanın və Ermənistanın qarşılıqlı olaraq bir-birinin ərazi bütövlüklərini tanımaları ismarıcıdır. Məhz bu incə və əhəmiyyətli məqamda Prezident İlham Əliyev İrəvana xəbərdarlığını göndərdi: əgər Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımazsa, onda Azərbaycanın kifayət qədər tarixi faktlara əsaslanan və bugünkü Ermənistanın ərazisinə daxil olan torpaqları ilə bağlı planları işə salına bilər.

Yəni Azərbaycan Ermənistanın ərazi bütövlüyünü tanımaması ilə tarixi Zəngəzur, İrəvan torpaqlarının ona məxsus olduğunu haqlı şəkildə və əsas olaraq gətirə bilmək hüququndadır və bu hüququ kimsə bizim əlimizdən ala bilmək iqtidarında deyil!

### Əgər bu gün İrəvanın ağıllanmasının elə də mümkün görünmədiyini, yaxud ağıllanmaq istəmədiyini desək...

Beləliklə, top İrəvana tərəf ötürüldü və etiraf edə bilərik ki, Prezident İlham Əliyevin sözügedən mövzu ətrafında dolğun, aydın, dəqiq bəyanatları qarşı tərəfi düşünməyə vadar etməlidir. Çünki vaxt daralır və daraldıqca da Ermənistan özünü daha çox çıxılmaz vəziyyətə doğru sürükləmiş olur. Əgər bu gün İrəvanın ağıllanmasının elə də mümkün görünmədiyini, yaxud ağıllanmaq istəmədiyini desək tabii ki, bundan sonrakı məsuliyyət də məhz erməni rəhbərliyinin üzərinə düşəcək. Prezident İlham Əliyev isə sözlərini əməli fəaliyyətləri ilə sübuta yetirən dövlət başçısıdır və eyni zamanda, bunda sonra hər hansı müddəti də gözləmək fikrində olmadığını açıq şəkildə bəyan etmiş oldu.

***Rövşən RƏSULOV***

**"Hava məkanından istifadə etmək məsələsinə gəldikdə, onu da bildirməliyəm ki, biz bu dəhlizdən Ermənistandan icazə almadan istifadə etdik. Bunu hər kəs bilsin, biz onlardan icazə almamışıq". Bunu Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib. Dövlət başçısı bildirib ki, bu, bizim hüququmuzdur, bu, beynəlxalq dəhlizdir: "Dünya aviasiya sistemində qaydalar var, yəni, mövcud olan dəhlizdən istifadə etmək olar. Biz qərara gəldik ki, bundan da istifadə edək, Zəngəzur dəhlizinin hava versiyasını həyata keçirək. Naxçıvana uçan təyyarələr həm vaxta, həm də yanacağa qənaət edirlər. Amma əsas məsələ, əlbəttə ki, bu deyil. Əsas məsələ artıq bu dəhlizi açmaq idi".**



# İlham Əliyev:

## "Zəngəzur dəhlizi" termininin müəllifi mənəm

Prezident İlham Əliyev vurğulayıb ki, Ermənistan tərəfi "Zəngəzur dəhlizi" ifadəsinə çox böyük qısqanclıqla yanaşır: "Bilmirəm, nəyə görə? Amma deyə bilərəm ki, bu terminin - təvazökarlıqdan uzaq olsa da, - müəllifi mənəm. Nə üçün mən bunu məhz Zəngəzur adlandırdım? Ona görə ki, birincisi, bu, Zəngəzurdur, bunun tarixi adıdır. Azərbaycan toponimidir, necə ki, Zəngilan, Zəngəzur, Zəngi çayı, - hansı ki, ermənilər indi Razdan adlandırırlar, - Azərbaycan toponimidir. İkincisi, biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu keçəcək, həm avtomobil yolu keçəcək. Bizim planımızda var, gələcəkdə oradan Naxçıvana elektrik xətləri çəkilsin. Çünki bizim elektrik enerjisi ilə bağlı çox böyük ixrac planlarımız var. Mən qeyd etdim ki, sabah 240 meqavatlıq külək elektrik stansiyasının təməli qoyulacaq. Cəbrayıl rayonunda 240 meqavatlıq yeni günəş stansiyasının tikintisi ilə bağlı xarici investorlar artıq bizə rəsmən müraciət edib. Xudafərin, Qız qalasında biz 140 meqavat elektrik enerjisi əldə edə bilərik. Kəlbəcər və Laçında isə 10 min meqavata yaxın potensial var, külək və enerji gücləri almaq imkanımız var. Ona görə biz elektrik xətləri də nəzərdə tuturuq. Ondan sonra ola bilsin ki, qaz xətləri də oradan keçsin. Bir xətt Qafandan, bir xətt Mehridən keçə bilər. Bir xətt Qarakilsədən keçə bilər, onlar Sisyan adlandırırlar. Ona görə Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir. Ermənistan tərəfi, bildiyiniz kimi, ilkin mərhələdə həm bu söz ifadəsinə etiraz edirdi, həm də ki, bütövlükdə buna etiraz edirdi. Hətta bu gün də belə Ermənistan siyasi məkanında bu dəhlizin Ermənistan üçün əlverişsiz olması ilə bağlı fikirlər var".

Dövlət başçısı onu da xüsusi olaraq bildirib ki, Zəngəzur məsələsinin həlli ilə bağlı ardıcıl olaraq işlər görülüb, Rusiya, Azərbaycan, Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup fəaliyyət göstərir: "Bu işçi qrup Ermənistan ərazisində olub və avtomobil yolunun mümkün olan marşrutlarını da incələyib. Çünki Ermənistan tərəfi ilkin mərhələdə qeyd edirdi ki, orada avtomobil yolu çəkmək mümkün deyil. Halbuki biz bilirik ki, bu, mümkündür və sovet vaxtında belə bir layihə var idi. Sovet vaxtında Ermənistan bu layihəyə etiraz edirdi və qeyd edirdi ki, bu, mümkünsüzdür. O vaxt Heydər Əliyev Moskvada Siyasi Büronun üzvü idi və sovet hökumətinin Nazirlər Soveti sədrinin birinci müavini idi. Məhz onun göstərişi və təkidi ilə Ermənistanın ovaxtkı rəhbərliyi - birinci katib və hökumətin rəhbəri məcbur olub bu layihəyə icazə verdilər. Necə icazə verdilər? O vaxt Dövlət Plan Komitəsi və digər aidiyyəti qurumlar yerində tanış oldular və bunu artıq plana salmışdılar. Avtomobil yolunun tikintisi də artıq başlanmışdı. Baxın, ermənilər hələ o vaxt istəmirdilər ki, Azərbaycan ilə Naxçıvan Muxtar Respublikası arasında avtomobil bağlantısı olsun. Hələ o vaxt buna müxtəlif bəhanələrlə etiraz edirdilər. Yəni, bu imkanlar var. Bu gün bu işçi qrup da bunu təsbit edib. Ermənistan isə ilkin mərhələdə dəmir yoluna elə bil ki, razılığını verdi. Ondan sonra avtomobil yolunun çəkilişinə razılığını verdi. Artıq bu, təsdiqləndi. Hazırda avtomobil yolunun marşrutu məsələsi müzakirə olunur, haradan keçəcək. Bizim əsas şərtimiz ondan ibarətdir ki, ən qısa marşrut olmalıdır və ilin bütün fəsillərində bu marşrutdan istifadə etmək mümkün olsun. Çünki orada həm hava şəraiti bəzi yerlərdə əlverişsizdir, həm relyef. Bax belə. Bu dəhlizlə bağlı məsələ bu yerdədir".

Prezident İlham Əliyev qeyd edib ki, bizim səylərimiz nəticəsində artıq bu termin beynəlxalq leksikona da daxil edilib: "Hətta qeyd etdiyiniz kimi, xarici jurnalistlər mənə sual verdikdə də Zəngəzur dəhlizi deyirlər. Bunu hər dəfə eşitdikcə, necə deyərlər, mənə çox xoş olur. Hər dəfə təxmin edirəm ki, Ermənistan tərəfi yəqin, yenə də başını divara vurur. Ona görə ki, bu, artıq beynəlxalq leksikona daxil edildi və əlbəttə, həyata keçiriləcək".

Çünki, Zəngəzur dəhlizinin əhəmiyyəti böyükdür. Belə olan halda Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti daha da artacaq. Zəngəzur dəhlizinin açılması ilə həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin imkanları genişlənəcək. Belə ki, nəqliyyat dəhlizlərinin şaxələnməsi onun etibarlılığını artıran mühüm faktordur. Ancaq mənfur ermənilər və onların havadarları Zəngəzur dəhlizinin açılmasına hər vəchlə mane olmaq istəyirlər. Bu da səbəbsiz deyil. Çünki Zəngəzur dəhlizinin açılması Azərbaycanla Türkiyənin dünyada siyasi əhəmiyyətini daha da artıracaq. Bununla yanaşı, hər iki ölkəyə dünyada gedən siyasi proseslərə təsir göstərmək imkanı da qazandıracaq. Həmin qüvvələrə Prezident İlham Əliyev qəti şəkildə xəbərdarlıq edərək demişdir: "İndi Ermənistan Zəngəzur dəhlizinin açılmasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Məcbur edəcəyik onları, məcbur edəcəyik. Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istəyimizə nail olacağıq".

Bir sözlə, "Zəngəzur dəhlizi"nin açılması Ermənistanın istəyi ilə yox, labüd və vacib məsələ kimi təsdiq olunub.

***RƏFİQƏ KAMALQIZI***

---

# Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb

**Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibəsi Türkiyənin nüfuzlu kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, İHA xəbər agentliyi, "TRT Haber", "Haber Türk", "CNN Türk" telekanalları, "Yeni şafak", "Hurriyet", "Sabah" qəzetləri və digər media orqanları müsahibənin ayrı-ayrı hissələrini türkdilli ictimaiyyətin diqqətinə çatdırıblar.**

Türkiyə KİV-ləri məlumat verir ki, Avropa İttifaqının ikili standartlar siyasətini sərt tənqid edən Azərbaycanın dövlət başçısı Vətən müharibəsindən sonra regionda yaranmış vəziyyət barədə fikirlərini və mövqeyini bildirib.

Qardaş ölkə mediası yazır ki, sərhəddəki təxribatlara görə, Ermənistan rəhbərliyini sərt ittiham edən Prezident İlham Əliyev "Sadəcə olaraq, Ermənistan öz anti-Azərbaycan, islamofob, antitürk xislətlərindən əl çəkməlidir. Ermənistan da təbii olaraq bundan fayda götürə bilər" fikri ilə bir daha öz mövqeyini xatırladıb.



# Erməni təxribatlarına CƏMİYYƏTİN BAXIŞI NECƏDİR?

SORĞU

***Son zamanlarda ermənilər yenidən təxribata əl ataraq Kəlbəcər istiqamətində, həmçinin bir sıra şəhərlər və kəndlər istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlar və iriçaplı pulemyotlardan fasilələrlə atəşə tutub. Görünən odur ki, Ermənistan tərəfi hələ də üzərinə düşən öhdəliklərdən boyun qaçırır. İmzaladığı bəyannamələrin şərtlərinə əməl etmir. Bəs bu nə vaxta qədər davam edəcək? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik və onların fikirlərini aldıq.***

**Şəhər sakini Teyyub Manafov:** "Erməni tərəfinin belə hərəkətləri gözlənilən idi. Çünki onlar heç zaman öz sözləri üzərində durmayıblar. Hər zaman xainlik edirlər. Bunun qarşısını almalıyıq. Çox sərt şəkildə cavab verməliyik ki, onlar belə hərəkətlər etməkdən əl çəksinlər".





**Şəhər sakini Pərvin Kiani:** "Çox təəssüflər olsun ki, biz hələ də bu hallarla qarşılaşırıq. İstəməzdik ki, belə hallar baş versin. Biz nə qədər altdan alsaq da ermənilər öz əməllərindən geri qalmırlar. Hər zaman gərginlik yaradırlar. Üçtərəfli bəyannamələri imzalayırlar, amma heç birinə əməl etmirlər".



**Şəhər sakini Əli Quliyev:** "İnsanın gərək düşməni də mərd ola. Neçə ildir ki, torpaqlarımız düşmən tapdağı altında idi. Ali Baş Komandanımız və Müzəffər Ordumuz torpaqlarımızı işğaldan azad etdilər. Onlara böyük bir dərs verdilər. Amma paxıl qonşularımız hələ də bunu həzm edə bilmirlər. Ona görə hər dəfə təxribatlar törədirlər. Onlar nə qədər təxribatlar törətsələr də biz onların oyunlarının bir hissəsi olmayacağıq. Biz hər zaman öz sözümüzü demişik və arxasında da dayanmışıq".



**Şəhər sakini Nəzakət İsayeva:** "Ümumiyyətlə ermənilər hər zaman çalışırlar ki, təxribatlar törətsinlər. Hər zaman problem yaratmaq istəyirlər. Bu yersiz və faydasız əməllərindən əl çəkməlidirlər. Belə təxribatlar ancaq onların ziyanınadır. Bütün dünyaya özlərini tanıdırlar".

**Şəhər şakini Eldar Ağayev:** "Ermənilərin necə bir xalq olduğunu biz çox yaxşı bilirik. Bu hərəkətlərlə də özlərini dünyaya tanıdırlar. Artıq onlar başa düşməlidirlər ki, geri dönüş yolları yoxdur. Bu təxribatlara birdəfəlik son verməlidirlər".



**Şəhər sakini Leyli Məmmədova:** "Azərbaycan dövləti erməni təxribatlarının qarşısını hər zaman alıb. Düməni cavab atəşi ilə yerindəcə susdurub. Rus sülhməramlıları guya sərhəddə atəşkəsi qoruyur. Amma belə təxribatların olması onları içdən-içə sevindirir. Onlar sərhəd bölgələrdə gərginliyin olması istəyirlər".



**Şəhər sakini Aynur Hüseynova:** "Bununla ermənilər neçənci dəfədir ki, atəşkəsi pozurlar. Nəyə güvənib bu təxribatları edirlər o da bilinmir. Elə bilirlər ki, onların elədikləri yanlarına qalacaq. Dünya onların tərəfində olacaq. Amma artıq bütün dünya onların necə bir dövlət olduğunu görüb. Nə qədər təxribatlar törətsələr də Azərbaycan ordusu cavab atəşi ilə düşməni susduracaqlar".

*Abutel İlhamqızı*

# Sergey Borovikov: "Sovet İttifaqını dirçəltmək mümkün deyil"

ŞƏRH




**Son zamanlar mediada keçmiş SSRİ-yə bənzər bu və ya digər formatda "reanimasiya" mövzusunda müzakirələr nəzərəçarpacaq dərəcədə artıb. Eyni zamanda, Rusiyanın bəzi siyasi xadimlərinin- RLDP lideri Vladimir Jirinovskinin, Dövlət Dumasının deputatı Biysultan Həmzəyevin və Kreml siyasətinin bəzi təbliğatçılarının fikirləri bu məzmunlu müzakirələr üçün münbit zəmin yaradır. Qazaxıstandakı etirazlarla bağlı son hadisələr də bu cür söhbətlərin bir növ katalizatoruna çevrilib.**

"SSRİ-nin dirçəlişi" mövzusu digər məsələlərlə yanaşı, Rusiyanın ekspert icmasında da müzakirə olunur. "Səs" qəzeti xəbər verir ki, rusiyalı ekspert, Sərhəd Əməkdaşlığı Assosiasiyasının analitiki Sergey Borovikov "Caliber" analitik mərkəzinə şərhində bildirib ki, Sovet İttifaqı 30 il əvvəl dağılıb və belə bir böyük müddətdən sonra "reanimasiya" ola bilməz.

"Sovet İttifaqının dağılması böyük geosiyasi fəlakət idi və çox spesifik nəticələri oldu. Bu, keçmiş SSRİ-nin təxminən 25 milyon demoqrafik itkisi ilə bağlıdır. Bunlar böyük itkilərdir. Amma SSRİ-yə necə münasibətimizdən asılı olmayaraq, onu nə texniki, nə ideoloji, nə də etik cəhətdən əvvəlki formada bərpa etmək mümkün deyil. Təbii ki, SSRİ-nin təməlində yatan "Əməkdaşlıq və insan insana dost, yoldaş, qardaşdır" ideyaları indi dünyada hakim olan "rəqabət, insan insan üçün canavardır" fikirlərindən qat-qat cəlbedicidir. Amma layihə bağlanıb və biz onu öyrənə, müzakirə edə bilərik, amma heç bir şəkildə onu canlandıra bilmərik. Ona görə də, nə postsovet məkanında, nə də başqa ölkələr onun əsasını təşkil edə bilməz. Bu, sırf tarixi səbəblərdən başqa, 3 əsas səbəblə müşayiət olunur.

Birincisi, respublikaların yeni Sovet İttifaqının ətrafında toplaşa biləcəyi yeni ideyanın olmamasıdır. Lenin miqyasında oxşar əsərlər toplusu olan nəzəriyyəçilər yoxdur. Mən elə bir lider tanmımıram ki,- bəlkə də bu fikir mübahisəlidir-, intellektual istehsalının səviyyəsi kütlə üçün cəlbediciliyi baxımından onunla müqayisə oluna bilər.

İkincisi, insanları birləşdirə biləcək ideya yoxdur, çünki bu, ya yeni ideya, ya da yenilik elementləri ilə çox işlənmiş köhnə ideya olmalıdır.

Sovet İttifaqının indi dirçələ bilməyəcəyi üçüncü məqam isə dünya mənzərəsində bu cür dövlətin yerini Çinin tutmasıdır. Marksizmin inkişaf xəttinin bütün qeyri-müəyyənliyinə baxmayaraq, o, hələ də Kommunist Partiyasının, Dövlət Plan Komitəsinin idarə etdiyi bir dövlətdir. Düşünürəm ki, Çinin kölgəsində yeni bir şey yaratmaq mümkün deyil. Bir sıra siyasətçilərin Qazaxıstanın şimal hissəsinin Rusiyaya birləşdirilməsi ilə bağlı bəyanatlarına gəlincə, məncə, bu, yalnız süni ajiotaj, diqqəti cəlb etmək cəhdidir və başqa heç nə kimi qiymətləndirilməlidir.

Mənim fikrimcə, prinsipcə, bu cür birləşmənin zəruriliyi və mümkünlüyü ilə bağlı əsaslı arqumentlər yoxdur. Bəli, müəyyən mədəni yaxınlıq var, axı, 30 il keçib və Belarusla olduğu kimi Qazaxıstanın da Rusiya ilə ittifaq qurması hardasa mümkündür. Amma bunlar mənim nöqteyi-nəzərimə görə çox zəif icma formalarıdır, heç bir şəkildə ilhaq və digər ərazi dəyişikliklərinə yaxın deyil. Rusiya nə təşkilati, nə siyasi, nə də iqtisadi cəhətdən buna hazır deyil.

*Tərcümə - Elçin Bayramlı*

# Türkiyə və İsrail prezidentləri arasında telefon danışığı olub

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə İsrail dövlətinin Prezidenti İsaak Hersoq arasında telefon danışığı olub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Anadolu Agentliyi məlumat yayıb. Bildirilir ki, Prezident Rəcəb Tayyib Ərdoğan israilli həmkarına anası Aura Hersoqun vəfatı ilə bağlı başsağlığı verib.



# Erməni redaktor: "Rusların üzünə tüpürmək və bayraqlarını yandırmaq lazımdır"



ABŞ-dan fərqli olaraq Rusiyanın prezidenti Ermənistanın baş prokuroruna medal təqdim etdi, hansı ki, o (baş prokuror) daxil olmaqla digər onun kimiləri bütün rusiyapərəst xadimlərinə, hətta KTMT-nin baş katibinə (Yuri Xaçaturovu nəzərdə tutur) qarşı ittihamlar irəli sürmüşdülər. SİA news.am-a istinadən xəbər verir ki, bu barədə özünün Facebook səhifəsində Ermənistanın politik.am saytının baş redaktoru Boris Murazi yazıb.

Erməni jurnalisti həmçinin nümunə gətirib. "Siz təsəvvürünüzə gətirə bilərsiniz ki, misal üçün, məhkəmə qarşısında Daniel İonasyan, Styopa Safaryan, Arman Babacanyan və başqa amerikapərəst xadimlər dayanıblar, onlara qarşı ittihamlar irəli sürülür, onlar prokurorluqdan müdafiə olunurlar, ABŞ isə bütün bunlara görə əsas cavabdehliyi daşıyan prokurora medal təqdim edir. Təsəvvürə gətirə bilmirsiniz, elədirmi?", deyə erməni saytının rəhbəri yazıb.

Baş redaktor etiraf edir ki, bununla bağlı onda müəyyən və birmənalı olmayan təəssüratlar yaranıb. "Artıq məndə belə bir təəssürat yaranıb ki, rusların sizə qarşı müsbət yanaşması üçün ya vacib şəkildə sorosçuya çevrilməlisən, ya onların (rusların) üzlərinə tüpürəsən, ya da heç olmasa Rusiya bayrağını yandırasan", Boris Murazi Rusiyanı və rusları təhqir edən fikirləri ilə gündəmə gəlib.

Xatırladaq ki, son zamanlar Ermənistanda anti-Rusiya xarakterli aksiyalar, siyasi arenalarda isə fikir və müzakirələr sürətlə artmağa başlayıb.

*Rövşən RƏSULOV*

# “Prezidentin müsahibəsi Ermənistana və onun havadarlarına ciddi mesajdır”

**“Dövlət başçısı İlham Əliyevin yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsi bir daha ötən ildə Azərbaycanın sosial, iqtisadi, siyasi, diplomatik və hərbi sahədə qazandığı uğurlara və onların fonunda qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərə bir baxış kimi dəyərləndirilir. Ölkə Prezidenti hər bir ölkənin inkişafında əsas amil olan iqtisadi tərəqqidən bəhs edərək Azərbaycanın iqtisadiyyatını düzgün qurması nəticəsində əldə etdiyi nəticələri statistik rəqəmlər əsasında diqqətə çatdıraraq bildirmişdir ki, iqtisadi və sosial siyasətimiz biri-birini tamamlayır. İqtisadi islahatların davamlılığı ölkənin dayanıqlı inkişafının əsasıdır.**



Dövlətin həyata keçirdiyi siyasətin mərkəzində vətəndaş amili dayanır. Prezident İlham Əliyev daim bu fikri vurğulayır ki, sosial-iqtisadi inkişaf yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır. Müharibədən yeni çıxan, eyni zamanda iki ildən artıqdır ki, koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərini gücləndirən ölkənin əldə etdiyi nəticələr münbit iqtisadi şəratin mövcudluğundan xəbər verir. Dövlət başçısının ötən ildə işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri ilə yaxından tanış olmaq üçün bu torpaqlara səfərləri ilə yanaşı, digər regionların da sosial-iqtisadi inkişafı diqqətdən kənarda qalmadı. Əsas məqsəd hər bir bölgənin malik olduğu potensial imkanlardan maksimum istifadə edərək qeyri-neft sektorunun inkişafını sürətləndirmək, bununla da Azərbaycanın hərtərəfli inkişafını təmin etməkdir. Ötən ilin uğurlarına söykənərək formalaşdırılan 2022-ci ilin dövlət büdcəsi də cari ildə görüləcək işlərin aydın mənzərəsini yaradır. Dövlət başçısının müsahibəsində diqqət yönəltdiyi məsələlərdən biri də məhz bu idi”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, dövlət başçısı İlham Əliyevin bütün çıxışlarının, müsahibələrinin mahiyyətində dayanan əsas məsələlərdən biri şəffaflığın təmin olunması, korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi ilə əldə olunan nəticələrdir: ”Ölkə Prezidenti müsahibəsində bu çağırışları bir daha diqqətə çatdırmışdır ki, bu il də bu sahədə mübarizə davam etdiriləcək. Son illər göstərilən qətiyyət və sözlə əməl arasında vəhdət hər kəs üçün dərs olmalıdır. Korrupsiya ilə, rüşvətxorluqla ciddi mübarizə aparılmalı və əgər bu və ya digər məmur bu çirkaba bulaşarsa, cəza çox sərt olacaq. Heç kim məsuliyyətdən boyun qaçıra bilməz, heç kim qanundan üstün deyil, qanun qarşısında hamı bərabərdir. Heç kimin əvvəlki xidmətləri nəzərə alınmayacaq.

Hər bir ölkənin bütün sahələr üzrə inkişafında məmur-vətəndaş münasibətləri böyük rol oynayır. Məmur-vətəndaş münasibətlərinin şəffaflığı, məmurların öz fəaliyyətlərində vətəndaş məmnunluğunu əsas hədəf kimi müəyyənləşdirməsi həm ölkəmizin dayanıqlı inkişafının təminatıdır, həm də sabitliyin güclənməsinə xidmət edən vacib amillərdən biridir. Ölkə Prezidenti vətəndaşlarla münasibətdə şəffaflığın artırılmasını, onlara daha keyfiyyətli, rahat, müasir şəkildə xidmət göstərilməsini və vətəndaş məmnunluğunun təmin olunmasını məmurlar qarşısında ən vacib vəzifələr kimi müəyyənləşdirib. Yeniliyə, təkmilləşməyə daha çox meyilli olan ölkəmizdə kadr islahatlarının, Azərbaycan brendi kimi nüfuz qazanan ”ASAN xidmət”, DOST layihələrinin həyata keçirilməsində də şəffaflığın qorunması, vətəndaş məmnunluğunun artırılması əsas hədəflərdəndir”.

”Dövlət başçısı yerli televiziyalara müsahibəsi vasitəsilə bir daha aidiyyəti qurumlar qarşısında bu tələbi qoydu ki, bütün sahələrdə ASAN modeli tətbiq edilməlidir. Çünki ASAN modeli artıq sınaqdan çıxmış bir modeldir. ”ASAN xidmət”in əhali tərəfindən bəyənilmə əmsalı 98 faizdir” söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, ölkə Prezidenti üçün vətəndaş məmnunluğu son dərəcə vacib məsələdir: ”İkinci Qarabağ müharibəsində Azərbaycanın hərbi-siyasi qələbəsi bir daha bu reallığı təsdiqlədi ki, dövlətini, xalqını sevən, hər an onun gələcəyi barədə düşünən Prezident İlham Əliyev kimi Lideri olan xalq xoşbəxtdir, məğlubedilməzdir. Məhz Vətən müharibəsində Qələbəmiz Prezident İlham Əliyevin adını tarixə qalib, Müzəffər Sərkərdə, Azərbaycan xalqını məğlubedilməz, qürurlu xalq, ordumuzu rəşadətli, qalib ordu kimi yazdı. Siyasi mənsubiyyətindən, əqidəsindən asılı olmayaraq bütün vətəndaşların dövlət başçısı İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşməsi Prezident-xalq sevgisini, həmrəyliyini nümayiş etdirdi. Dövlət başçısının sözügedən müsahibəsi bir çox məqamlara işıq salınmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə quruculuq və bərpa işlərinin insanların rahatlığını tam təmin edəcək şəkildə həyata keçirilməsi ilə bağlı səsləndirilən fikirlər Prezidentimizin hər bir vətəndaşının yanında olmaqla yanaşı, müstəqil Azərbaycanımızı daha güclü, qüdrətli dünyaya təqdim etməkdir. Ölkə Prezidenti bildirmişdir ki, işğaldan azad edilmiş ərazilərə qayıdacaq insanlar ən yaxşı şəraitlə təmin edilməlidir. Çünki bu insanlar 30 il dövlətin qayğısı ilə əhatə olunsalar da həmişə öz torpaqlarının həsrəti ilə yaşamışlar. Ona görə həm vaxt itirməməliyik, həm də tələsməməliyik. Hər şey əsaslı olmalı, bütün inşaat işləri şəffaf aparılmalıdır. Maksimum şəffaflıq təmin edilməlidir. Əgər hər hansı bir xoşagəlməz halla üzləşsək, cəzamız çox sərt olacaq, bunu hər kəs bilməlidir və bilir.”

YAP Xətai rayon təşkilatının sədri müsahibədə yer alan postmünaqişə dövrünün reallıqlarından, dünyanın əksər dövlətlərinin bu reallıqları hansı səviyyədə qəbul etmələrindən, Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşduğu üçün ATƏT-in Minsk qrupunun fəaliyyətinə ehtiyacın olmamasından, bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasında dünya güclərinin marağından, Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan nüfuzundan və siyasi çəkisindən, Avropa İttifaqı-Azərbaycan əlaqələrindən geniş bəhs edərək əsas diqqəti hazırkı dövrdə sülh müqaviləsinin zəruriliyi məsələsinə yönəldib: ”Ölkə Prezidenti bir daha bildirdi ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər. Bü müqavilə imzalansa da, imzalanmasa da Azərbaycan öz hərbi gücünü, qüdrətini daim artıracaq və artırmalıdır. Hazırkı durumda Ermənistanın tərəddüdü diqqətdən kənarda qalmır. Bütün hallarda Ermənistan hakimiyyətinin öz havadarlının fikrindən asılılığı özünü aydın şəkildə göstərir. Xatırlasaq, Ermənistanın baş naziri açıqlamalarında sülh müqaviləsinin imzalanması ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən təklif gözlədiklərini bildirmişdir. Amma unudur ki, məhz 30 ilə yaxın dövrdə həmin təklifləri gözləməklə hazırkı vəziyyətin yaranmasına gəlib çıxıblar. Azərbaycan istər müharibə, istərsə də postmünaqişə dövründə uğurlu siyasəti ilə daim inkişaf yolunda olub. Həyata keçirdiyi siyasətində müstəqil olan dövlətin iqtisadi tərəqqisi qaçılmazdır və bu da öz növbəsində siyasi müstəqilliyə əsas yaradır. Sülh müqaviləsinin imzalanmasına gəldikdə isə burada əsas müddəalardan biri tərəflərin bir-birinin ərazi bütövlüyünü tanımasıdır. Ermənistanın bu addımı atmaqda tərəddüd etməsi də hər zaman olduğu kimi, bu gün də dünyanın bəzi güclərinin əlində oyuncağa çevrilməsi ilə bağlıdır. ”Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var, nəinki onların bizim ərazi bütövlüyümüzü tanımaması üçün. Çünki hər kəs artıq bunu yaxşı bilir, dünya ictimaiyyəti də bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur bizdən ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi” söyləyən dövlət başçısı Ermənistana bu mesajı da ünvanladı ki, elə bilməsinlər ki, biz daim onlardan sülh tələb edəcəyik. Biz, sadəcə olaraq, regionun gələcəyi və müharibə riskinin sıfra endirilməsi naminə bu təklifi edirik. Biz heç nə itirməyəcəyik. Amma itirən tərəf Ermənistan olacaq”.

# “Prezident müsahibəsində çox mühüm məsələlərə münasibət bildirib”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 12 yanvar 2022-ci il tarixdə yerli televiziya kanallarına müsahibə verib. Prezident İlham Əliyev müsahibədə çox mühüm məsələləri əhatə edən sualları cavablandırıb. Azərbaycanın 2021-ci ildə əldə etdiyi iqtisadi uğurlardan danışılarkən qeyd olunub ki, ümumi iqtisadi artım 5 faizdən çox olub. Ən sevidirici hal odur ki, qeyri-neft iqtisadiyyatında artım 7,2 faiz təşkil edib. Azərbaycanda ümumi sənaye istehsalı 5 faizdən çox, qeyri-neft sənayesi isə 20 faizə yaxın artıb. 2021-ci ildə xərclərin artmasına baxmayaraq valyuta ehtiyatı 2,5 milyard dollar artıb. Azərbaycan dünyada nadir ölkələrdən biridir ki, xarici ticarət balansının saldosu müsbətdir. Müsbət saldo 10 milyard dollardan çoxdur. Qeyri-neft ixracı 40 faizdən çox artıb.

Çörəyin qiymətinin qalxmasına münasibət bildirən Prezident İlham Əliyev bildirmişdir ki, bu qaçılmaz idi. Dünyada taxılın, buğdanın qiyməti kəskin artıb. Azərbaycanın əsas təchizatçısı Rusiyadır.



*Rauf Əliyev*
*Milli Məclisin deputatı*

Rusiyada həm qiymətlər, həm də ixrac rüsumları artmışdır və artmaqda davam edir. Çörəyin qiyməti süni sürərdə əvvəlki səviyyədə saxlanıla bilməzdi. Bu nəzərə alındı və eyni zamanda, dövlətin tənzimləyici rolu gücləndirildi ki, süni qiymət artımı olmasın. Eyni zamanda ölkədə çox geniş sosial paket həyata keçirildi. Minimum əmək haqqı 20 faiz, minimum pensiya 20 faiz, müxtəlif sahələrdə çalışan işçilərin əmək haqqları, təqaüdlər, sosial müavinətlər artırılıb. Bütövlükdə bu sosial paket 2 milyondan çox insanı əhatə etməklə 1,5 milyard manat vəsaitlə başa gəlmişdir.

Şəhid ailələrinə, müharibə əlillərinə dövlət qayğısı və diqqətdən və onların sosial rifahının yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışarkən cənab Prezident qeyd etmişdir ki, Azərbaycan dünya miqyasında bu sahədə öz modeli olan ölkələrdəndir. Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən qayğı və diqqət nümunə sayıla bilər. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillə təmin olunub, 7400 nəfər minik avtomobili ilə təmin olunub. Təkcə keçən il 850 nəfər Birinci Qarabağ müharibəsində şəhid olanların ailələri və qazilər, 750 nəfər İkinci Qarabağ müharibəsində şəhid olanların ailələri və qazilər mənzillə təmin olunublar. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa -yenidənqurma işləri ilə əlaqədar qeyd olunmuşdur ki, 2021-ci ildə bu istiqamətdə çox böyük proqram icra edilməyə başlanmışdır. Müharibədən çıxmış bir ölkə üçün bu ən geniş miqyaslı proqramdır. Bu proqramı fərqləndirən odur ki, proqram heç kimin yardımı olmadan Azərbaycanın öz gücü hesabına həyata keçirilir. İlkin olaraq minalardan təmizləməklə yanaşı, elektrik təsərrüfatı yaradıldı, yollar şəkildi. Təkcə Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı və Erənistanla həmsərhəd olan bölgələrdə 700 km yaxın yol çəkilib. Artıq Bərdə-Ağdam dəmir yolunun və Horodiz - Ağbənd - Zəngəzur dəhlizinin bir parçası olan dəmir yolunun inşasına başlanıb.

ATƏT-in Minsk qrupu ilə bağlı suala cavablandırarkən cənab Prezident qeyd etmişdir ki, müharibədən sonra həmsədrlərin ilk bəyanatlarında onlar yeni reallıqlardan şox uzaq idilər. Lakin sonradan onların bəyanatlarına baxsaq görərik ki, indi artıq həm 10 noyabr tarixli üçtərəfli Bəyanata, həmdə başqa sənədlərə istinadları görünür. Bu qrupun gələcək fəaliyyətinə gəldikdə isə onu demək olar ki, onlar Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdırlar, çünki bu münaqişə artıq həll olunub. Azərbaycan onların yerinə bu məsələni həll edib. Cənab Prezidentin üç saaat ərzində yerli televiziya kanallarına müsahibəsində jurnalistlərin Azərbaycanda 2021-ci ildə iqtisadi, sosial sahədə görülən işlərə, ATƏT-in Minsk qrupu , işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinə və digər məsələlərlə bağlı suallara cavabları göstərir ki, Azərbaycan bundan sonra də cənab Prezidentin rəhbərliyi ilə bütün sahələrdə qarşıya qoyulmuş vəzifələri uğurla həyata keçriləcəkdir.

# Çətin söhbət: NATO-Rusiya görüşü



**Nümayəndə heyətlərinin başçıları xarici işlər nazirinin müavini Sergey Ryabkov və dövlət katibinin birinci müavini Vendi Şerman yavaş-yavaş zala daxil olur və qarşı-qarşıya otururlar. Bir müddət sonra protokol fotoşəkili çəkdirmək üçün bayraqlara yaxınlaşırlar. "Məsafəni ciddi şəkildə saxlayın, əl sıxmaq olmaz". Əvvəl zarafatla dirsəklərə toxunurdular, indi isə yox.**

"Qarşıda hamının gözlədiyi, dünyanın heyrətlə izlədiyi maraqlı işlərə məşğuluq. Söhbət çox mürəkkəbdir. Dialoq asan olmayacaq", - Ryabkov yanındakılara deyir. Xəbərdarlıq edir: "Amerikalılar kompromislərə hazırlaşmalıdırlar. Rusiya nümayəndə heyəti bura bir sıra elementləri ehtiva edən, mənim fikrimcə, kifayət qədər başa düşülən və o qədər aydın şəkildə, o cümlədən ən yüksək səviyyədə ifadə olunmuş mövqe ilə gəlib. Bu yanaşmadan sadəcə olaraq kənara çıxmaq olmaz".

Amerikalılar öz qiymətləndirmələrində daha təmkinli idilər. Şerman bildirib ki, ABŞ müttəfiqlərin və tərəfdaşların iştirakı olmadan Avropanın təhlükəsizliyini müzakirə etmək istəməz. Dövlət Departamenti qısa kommünike yayaraq bildirib ki, Vaşinqton "ölkələrin hansı ittifaqlara qoşulacağını müstəqil seçmək hüququnu dəstəkləyir".





Nəhayət 2 ildən sonra Rusiya-NATO sammiti keçirildi. Bunu Qərbin SSRİ-nin varisi olan Rusiya ilə köhnə haqq-hesabının kəsildiyi və gələcəkdə "Şimal ayısı"nı hansı "yeniliklər"in gözlədiyinə aydınlıq gətirən görüş də adlandırmaq olardı. İndi tərəflər əldə etdikləri uğurlardan danışır, rəqibinə vurduğu nokaut zərbəsindən söz açır. Amma belə görüş olmur, bir-birinə düşmən gözü ilə baxan NATO ilə Rusiya arasında isə heç olmur...



NATO Şurasının bu iclası alyans üçün "çətin, lakin vacib" oldu. Moskvada bunu "ürəkdən söhbət" kimi qələmə verirlər. Dörd saatdan çox davam edən danışıqlar, ekspertlərin fikrincə, "həm iki tərəf - Rusiya ilə NATO arasında çoxsaylı ziddiyyətləri üzə çıxardı, həm də qarşıdurmanı gərginləşdirmək istəmədiklərini göstərən ən səmimi söhbəti etdilər". Rusiya-NATO Şurasının iclası Şimali Atlantika Alyansının Brüsseldəki qərargahında dörd saatdan çox davam edib. Bu, son iki ildə bu formatda ilk görüş idi.

NATO-nun baş katibi Yens Stoltenberqin sözlərinə görə, yanvarın 12-də Şimali Atlantika Alyansının Brüsseldəki qərargahında "çətin, lakin vacib müzakirə" baş tutub. O, etiraf edib ki, tərəflər arasında aradan qaldırılması asan olmayan ciddi fikir ayrılıqları var. Bununla belə, onun sözlərinə görə, NATO müttəfiqləri Rusiya ilə münasibətlərdə irəliləyişə nail olmaq məqsədi daşıyır. "NATO-nun müttəfiqləri irəliləyiş, siyasi yol tapmaq üçün mümkün olan hər şeyi edəcəklərini vurğuladılar. Biz geniş spektrli məsələlər üzrə səmimi və açıq müzakirə apardıq, təbii ki, diqqəti Ukraynada və onun ətrafında gərginliyə yönəltdik. Amma görüş faydalı oldu".

Alyans Rusiya Federasiyası ilə ABŞ arasında təhlükəsizlik təminatlarına dair ikitərəfli məsləhətləşmələri alqışlayıb və qeyd edib ki, Avropada təhlükəsizlik naminə konstruktiv qarşılıqlı fəaliyyət imkanlarını əldən vermək olmaz. Bundan əlavə, NATO Rusiya ilə raketlərin qarşılıqlı məhdudlaşdırılması və nüvə siyasəti məsələlərini müzakirə etməyə hazır olduğunu bildirib.




Əsas xəbərlərdən biri, Stoltenberqin alyansın Moskvada nümayəndəliyini yenidən açmaq niyyəti ilə bağlı açıqlaması olub: "Biz bu gün də açıqladıq ki, biz dialoqa inandığımız üçün Moskvadakı NATO nümayəndəliyini, eləcə də Rusiyanın NATO-dakı missiyasını yenidən açmağa, bərpa etməyə hazırıq. Biz əminik ki, bu nümayəndəliklər bizim səmərəli dialoq apara biləcəyimiz infrastrukturun bir hissəsidir. Rusiyanın NATO-dakı missiyasının işinin bərpası üçün alyansın heç bir ilkin şərti yoxdur".

Lakin görüş müsbət xəbərlərlə məhdudlaşmayıb. Beləliklə, Stoltenberq dialoqa hazır olmasına baxmayaraq, Avropada silahlı münaqişə riskinin hələ də qaldığını etiraf edib. Bununla belə, alyansın baş katibi hesab edir ki, Moskva əməkdaşlığa və məsələlərin siyasi həllinə hazır olsa, Rusiya ilə Qərb arasında gərginliyin azaldılması mümkündür.

Danışıqların nəticəsindən danışan Stoltenberq Ukraynanı xüsusi qeyd edib, bir daha bildirib ki, alyans Kiyevi dəstəkləmək niyyətindədir və Rusiya bu ölkənin NATO-ya daxil olmasına mane ola bilməz: "Müttəfiqlər həmçinin razılaşırlar ki, Ukraynanın NATO-ya üzv olmağa nə vaxt hazır olacağına yalnız Ukrayna və 30 alyans üzvü qərar verə bilər, başqa heç kim. Rusiya Ukraynanın NATO-ya daxil olmasına veto qoya bilməz".

"Rusiyada hələ də NATO-nun şərqə doğru genişlənməsi ilə bağlı narahatlıq var. Şimali Atlantika Alyansının genişləndirilməsi prosesi Moskvanın qarşısına çıxacağı





yolverilməz risklər daşıyır". Bunu Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko görüşün yekunlarına dair keçirilən mətbuat konfransında bildirib.

"Xatırladım ki, 1997-ci ildə Rusiya Federasiyası ilə ümumi sərhədi olan yalnız bir ölkə NATO-nun qapısını döyürdü, bu, Polşadır. Bu gün bir çox dövlətlər NATO-ya qoşulub və onların əraziləri açıq-aydın Rusiya istiqamətində müxtəlif coğrafi istiqamətlərdən və strateji dərinliklərə güc layihələndirmək üçün istifadə olunur", - diplomat qeyd edib.

Qruşkonun sözlərinə görə, bu, Rusiyanın təhlükəsizliyini ciddi şəkildə pisləşdirir və yolverilməz risklər yaradır. Ona görə də biz buna qarşı çıxacağıq: "NATO Şurasının iclası son illərdə müşahidə olunan Avropa təhlükəsizliyinin deqradasiyasına təsir edən bütün amillərin təhlilinə həsr olunub".

Xarici işlər nazirinin müavini diqqəti görüşdə fundamental məsələlərdə çoxlu fikir ayrılıqlarının aşkar edildiyinə yönəldib. O, xəbərdarlıq edib ki, Rusiyanın addımları NATO-nun gedişlərinə adekvat olacaq. Rusiyanın





NATO-ya göndərdiyi təkliflər bir-biri ilə bağlı olan elementlərdən ibarətdir və kifayət qədər ciddidir.

Qruşko NATO-nu Rusiyaya - şərqə doğru genişlənməməsi üçün hüquqi təminat verməyə çağırıb. Bu təhdidlərə baxmayaraq, bütövlükdə, nazir müavini danışıqları müsbət qiymətləndirib və dialoqu "ürəkdən söhbət" adlandırıb: "Hesab edirəm ki, bu görüş tamamilə zəruri idi. Əvvəlcə bir növ şok yaşandı. Əgər bu görüş baş tutmasaydı, qarşılıqlı məsələləri hərtərəfli qabardmaq mümkün olmazdı, onlar həmişə bir növ arxa planda olurdu. Amma bu gün müzakirə olunduğu kimi, bu qədər birbaşalıq, kəskinlik yadımda deyil".

"Valday" klubunun proqram direktoru Timofey Bordaçevin sözlərinə görə, Rusiya ilə NATO arasında əvvəllər heç vaxt bu formatda səmimi söhbət olmayıb: "Tərəflər ilk dəfə olaraq öz maraqlarından çıxış edərək həqiqətin olduğunu iddia etmədilər. Tərəflər fikirlərinin fərqli olduğunu gizlətməyiblər - bu, ən mühüm nəticədir".

Rusiyanın ABŞ-dakı səfiri Anatoli Antonov isə bildirib ki, Moskva Vaşinqton və onun müttəfiqlərindən Avropa təhlükəsizliyi ilə bağlı təkliflərə əsaslandırılmış yazılı cavab gözləyir. "Biz vəziyyəti böhrandan çıxarmaq üçün təşəbbüslərimizi təqdim etdik. Yanvarın 10-da Cenevrədə, yanvarın 12-də isə Brüsseldə Rusiya-NATO Şurası çərçivəsində izahat verdik. Biz adekvat cavab gözləyirik. Bunlar isə populist bəyanatlar şəklində, lakin əsaslandırılmış yazılı təkliflərdir", - deyə diplomat bildirib.

Antonovun sözlərinə görə, Vaşinqton danışıqlarda arqumentlərlə öz mövqeyini müdafiə etmək iqtidarında deyil: "İnsanda belə bir təəssürat yaranır ki, amerikalı siyasətçilər mətbuat vasitəsilə "Rusiyanın Ukraynaya yaxınlaşması" mifini ortaya atıblar və indi öz fobiyalarına qalib gəliblər".

Qeyd edək ki, bir gün əvvəl Brüsseldə Rusiya-NATO Şurasının iclası keçirilib, ondan əvvəl, bazar ertəsi Cenevrədə Rusiya və ABŞ nümayəndə heyətləri arasında ikitərəfli danışıqlar aparılıb. Kreml blokun postsovet ölkələri ilə hərbi əməkdaşlığına son qoymaqda, onların ərazisində baza yaratmaqdan imtina etməkdə, Rusiya sərhədi yaxınlığında zərbə silahlarının yerləşdirilməsini məhdudlaşdırmaqda, Amerika nüvə silahlarını Avropadan çıxarmaqda və NATO-nun şərqə doğru genişlənməməsinə zəmanət verməkdə israrlıdır.

Moskvada diplomatik çevrələrdə vurğulanır ki, Cenevrədən başlayan diplomatik marafon Avropada təhlükəsizlik vəziyyətini müəyyən etmək üçün nəzərdə tutulub. Rusiya NATO-nun şərqə doğru genişlənməyəcəyinə zəmanət tələb etdi, lakin ABŞ yalnız silahlara nəzarəti müzakirə etməklə kifayətləndi. Danışıqların ilk raundunun heç-heçə bitdiyini demək olar. Amerika tərəfi baş verənlərin ciddiliyini lazımınca qiymətləndirmədi.

Danışıqların nəticəsi olaraq qeyd etmək lazımdır ki, NATO-nun genişlənməməsi ilə bağlı əsas məsələdə heç bir irəliləyiş əldə olunmayıb. Rusiya nümayəndə heyətinin rəhbərinin də dediyi kimi, "bu, Amerika tərəfinin baş verənlərin ciddiliyini lazımınca qiymətləndirmədiyini göstərir" və əlavə edib ki, vəziyyət dəyişməzsə, "Rusiya bu məsələni birtərəfli qaydada həll etməyə çalışacaq. Mən istəməzdim ki, ABŞ-ın rəhbərlik etdiyi NATO ölkələrinin belə bir səhvə yol verərək yenidən öz təhlükəsizliyinə və bütün Avropa qitəsinin təhlükəsizliyinə xələl gətirən hərəkətlər etsin".

Onun sözlərinə görə, Moskva qəti şəkildə sərt mövqe nümayiş etdirib, lakin ultimatumlar olmadan: "Biz heç kimi nəticələrlə hədələmirik. Amerika və Avropa tərəfdən isə biz davamlı olaraq Rusiyanın ödəyəcəyi və ya etsə, ödəyəcəyi yüksək qiymət barədə eşidirik. Sanki tarix onlara heç nə öyrətmir. Belə söhbət bizim üçün prinsipcə qəbuledilməzdir".

Növbəti turun baş tutub-tutmayacağı hələ dəqiq deyil. ABŞ görüşün davamına ümid edir. Rusiyanın isə NATO-nun şərqə doğru genişlənməsindən imtina etməsini və Ukrayna da daxil olmaqla sərhədə yaxın ərazilərdə zərbə silahlarının yerləşdirilməsinə məhdudiyyətlərin, postsovet ölkələri ilə hərbi əməkdaşlığın dayandırılmasını nəzərdə tutan yazılı təhlükəsizlik zəmanətlərinə ehtiyacı var.

Vladimir Putin noyabrın ortalarında hüquqi təminatlardan danışıb. Xarici İşlər Nazirliyinin kollegiyasında çıxışı zamanı o qeyd edib ki, Rusiya sülhsevər dövlətdir, lakin NATO qarşıdurmaya gedir. Putin Co Baydenlə telefon danışıqlarında da qırmızı xətlər çəkib. ABŞ Rusiyanın Ukraynaya hücum edəcəyi təqdirdə ciddi embarqo ilə üzləşəcəyini bildirib. Eyni sanksiyalar Kuba, İran, Şimali Koreya və Suriyaya da tətbiq edilib. Söhbət ABŞ-da istehsal olunan və ya inkişaf etdirilən elektronikadan istifadə edən hər hansı istehlak mallarının ixracına qadağa qoyulmasından gedir.

Bu arada dövlət katibi Entoni Blinken Rusiyanın Sovet İttifaqının vəziyyətini bərpa etməyə çalışdığını bildirib və ABŞ üçün bunun qəbuledilməz olduğunu xüsusi vurğulayıb.

Rusiya Beynəlxalq Əlaqələr Şurasının (RIAC) proqram direktoru İvan Timofeyev deyib ki, əslində heç kim bu görüşdən irəliləyiş gözləmirdi. "Tərəflərin mövqeləri köklü şəkildə fərqlənir, onları barışdırmaq kifayət qədər çətindir, danışıqlar uzun prosesdir", - deyə o, izah edir: "Vacibdir ki, indi ilkin mərhələdə qarşıdurmanın həlli yolları tapılsın. Gələcək təmaslar üçün bu, çox vacibdir".

Görüş barəsində Polşada işıq üzü görən yerli "My?l Polska" qəzeti də maraqlı məqalə dərc edib. Qəzet yazır ki, ABŞ və NATO Moskva və Kiyev arasında müharibəni qızışdırmaq üçün Rusiya ilə təhlükəsizlik məsələləri üzrə danışıqları pozmaq niyyətindədir: "Danışıqlardan heç nə alınmayacaq, çünki Birləşmiş Ştatlar və onun törəməsi olan NATO açıq şəkildə münaqişəni gərginləşdirməyə, Moskvanı iştirak etmək istəmədiyi müharibəyə cəlb etməyə çalışır. ABŞ nüvə müharibəsini istəmir, çünki bu müharibədə qalib olmayacaq. Onlara Ukraynada müharibə lazımdır və onlar Rusiyanı bu müharibəyə sürükləməyə çalışırlar".

Qəzet ABŞ və NATO-nun mövqeyini əlverişli adlandırır, çünki onların vətəndaşları döyüşlərdən əziyyət çəkməyəcək. Lakin nəşr hipotetik düşmənçilik halında polşalıların da müharibəyə cəlb olunacağını istisna etmir. Eyni zamanda, qəzet qohum xalqları oyuna salmaq cəhdlərini xüsusi vurğulayır: "Həqiqətən şeytani plan ümumi dini, mədəni və böyük ölçüdə etnik köklərə malik olan rus və ukrayna xalqlarının nümayəndələrinin tammiqyaslı münaqişənin tərkib hissəsi kimi bir-birini öldürəcəkləri vəziyyətin yaradılmasını nəzərdə tutur".

Qərb siyasətçiləri son aylar Rusiyanın Ukrayna ilə sər-



hədə qoşun topladığını iddia edirlər. Kremlin sözçüsü Dmitri Peskovun qeyd etdiyi kimi, silahlı qüvvələr dövlət ərazisi daxilində hərəkət edir və bu, heç kimi təhdid etmir. Moskva vurğulayıb ki, "Rusiya təcavüzü" ilə bağlı bəyanatlar NATO-nun sərhədyanı bölgələrdə kontingentinin yaradılması üçün bəhanə kimi istifadə olunur.

***V.VƏLİYEV***

Son 18 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmışdır. Görülən işlər təsdiq edir ki, ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də xüsusi həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verərkən bildirdiyi kimi, "Bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Çünki dünyada bir çox ölkələr müharibə şəraitində olublar. O ölkələrin təcrübəsini biz bilirik, öyrənirik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik".

## "Azərbaycanda şəhid ailələrinə, qazilərə göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər"

### "BU KATEQORİYADAN OLAN TA AXIRINCI İNSAN MƏNZİLLƏ, AVTOMOBİLLƏ TƏMİN OLUNANA QƏDƏR BU MƏSƏLƏ İLƏ MƏŞĞUL OLACAĞIQ"

Şəhid ailələri, müharibə əlilləri dövlət tərəfindən mənzillərlə təmin olunublar. "Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib", - deyə Cənab Prezident bildirib. Dövlət başçısı müharibə iştirakçılarının və qazilərin minik avtomobilləri ilə təmin olunduğunu diqqət çəkib və onlara 7400 avtomobilin verildiyini də qeyd edib. Növbədə duranlar isə yeni Birinci Qarabağ müharibəsinin iştirakçıları və qaziləri artıq yaxın gələcəkdə tam təmin ediləcəklər. "Təkcə keçən il Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qaziləri evlərlə təmin edilib. Onlardan 850 nəfəri mənzillərlə təmin edilib, İkinci Qarabağ müharibəsinin iştirakçıları, yəni qaziləri və şəhid ailələri, onlara da 750 mənzil verilib, bu proses davam etdirilir. Hesab edirəm ki, Birinci Qarabağ müharibəsində iştirak etmiş bu kateqoriyadan olan insanlara bəlkə də iki il ərzində, tam, yəni növbədə duranlara mənzillər veriləcək. İkinci Qarabağ müharibəsində, həmçinin yaxın bir neçə il ərzində bu şərait yaradılacaq".

Dünyanın heç bir ölkəsində bu kateqoriyadan olan insanlara bu şəkildə qayğının göstərilməsinə təsadüf olunmur. "Bu həssas kateqoriyadan olan insanlara müəyyən dərəcədə təsəlli vermək və onların dərdinə şərik olmaq üçün biz bu addımı atırıq", - deyən dövlət başçısı bildirib ki, əlbəttə, bu, böyük vəsait tələb edir: "İndi hər kəs bilir ki, bir mənzilin qiyməti neçəyə başa gəlir və bu, büdcə üçün böyük bir yükdür. Amma biz bu yükün altına girmişik və sona qədər bu işi aparacağıq, bu kateqoriyadan olan ta axırıncı insan mənzillə, avtomobillə təmin olunana qədər bu məsələ ilə məşğul olacağıq".

### "MÜHARİBƏ ZAMANI ƏLİNİ, QOLUNU, AYAĞINI İTİRMİŞ QAZİLƏRƏ ƏN MÜASİR PROTEZLƏR TƏQDİM EDİLİR"



Vətən müharibəsində yaralanmış hərbçilər son illərdə yaradılmış müasir reabilitasiya infrastrukturundan istifadə edilməklə həmin hərbi qulluqçuların effektiv reabilitasiya xidmətləri ilə təminatı işləri aparılıb. Vətən müharibəsində yaralanmış hərbçilərdən artıq 2515 nəfərə əlillik dərəcələri, Prezidentin aylıq təqaüdü və əlilliyə görə pensiya, yaxud əlliyə görə müavinət təyin olunub. Eyni zamanda, 184 hərbçi yüksək texnologiyalı müasir 4-cü nəsil protezlə təmin edilib. "Müharibə zamanı əlini, qolunu, ayağını itirmiş qazilərə ən müasir protezlər təqdim edilir. Bu proses artıq başa çatmaq üzrədir. Onları normal həyata qaytarmaq üçün biz bunu edirik, özü də bu protezlər ən son texnologiyadır" - deyən Prezident bildirib ki, bunların Avropanın ən qiymətli, ən bahalı, ən son texnologiyası olan protezlər olduğunu vurğulayıb: "Hətta indi əlini, qolunu itirmiş insan da artıq normal həyata qayıda bilər. Yəni, bu, əsas faktorlardır. Əlbəttə ki, bu siyasət və Mənim bu kateqoriyadan olan insanlarla daim təmaslarım cəmiyyətə də göndərilən çox ciddi siqnaldır".

Ötən il ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan 1200 nəfər reabilitasiya ilə təmin olunub. Əlbəttə ki, bu gün müharibə iştirakçısı olmuş insanların işlə təminatı da diqqətdə saxlanılır. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Görülən işlər dövlətimizin şəhid ailələrinə, müharibə iştirakçılarına və qazilərə olan münasibətinin təzahürüdür. Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu siyasət davamlı xarakter daşıyır. Azərbaycan dövləti bu qəbildən olan insanların qayğı və ehtiyaclarını diqqətdə saxlayır, sosial problemlərinin həlli istiqamətində ardıcıl işlər görülür.

Bununla da şəhid ailələrinin, müharibə iştirakçılarının sosial müdafiəsi ildən-ilə yaxşılaşır, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən böyük rəğbət və məmnunluqla qarşılanır.

**Nəzakət ƏLƏDDİNQIZI**

TƏRS BAXIŞ-ÖZƏL

# Yerablur məzarlığı artıq onları gözləyir

*Yaxud, Nikol Paşinyanın KTMT ümidləri necə puç oldu?*

Beləliklə, ötən gün Ermənistanın Azərbaycanla sərhədində düşmənin təxribatı nəticəsində bir hərbçimizin şəhid edilməsinin ardınca gözlənilən nəticə baş verdi - qarşı tərəf daha böyük itkilərlə, üstəlik, mövqelərini itirməklə geri çəkildi. Lakin məsələ həm də digər tərəfdədir. Hazırkı məqamda tərəflərin təmas xəttində situasiya sabitdir. Yəni Azərbaycan tərəfindən kifayət qədər ağır, sərt cavab verildi ki, erməni tərəfi çoxsaylı canlı və hərbi texnika sarıdan qazandıqları itkilərini, eləcə də yaralılarını saymaqla, o cümlədən, ictimaiyyətindən gizlətməklə məşğuldur. Çünki digər məlumata görə, döyüşün baş verdiyi ərazilərdə düşmənin gecədən qalmış meyitlərini topladıqları barədə də bir sıra məlumatlar mövcuddur.

### Paşinyan KTMT çərçivəsində Qazaxıstana 100 nəfərlik hərbçi göndərməklə elə sandı ki...

Əlbəttə, cəbhədə qısa müddətlik sakitlikdən sonra Ermənistan tərəfinin yenidən törətməyə cəhd etdiyi təxribatının arxasında kimlərin dayanması da maraqlıdır.



İlk növbədə, ağla gələn məhz Ermənistanın baş naziri Nikol Paşinyandır və özünün belə təxribatçı əmri verməsi kələfiinin bir ucu KTMT-yə söykənir. Daha dəqiq desək, Paşinyan KTMT çərçivəsində Qazaxıstana 100 nəfərlik hərbçi göndərməklə, erməni əsgərlərinin Alma-Atada fəaliyyət göstərən bazarlarında "mühafizə missiyalarını" (xiyar-pomidor satışı pixtaxtalarında dayanmaqla-R.R.) təmin etməklə elə sandı ki, sabah Azərbaycana qarşı silahlı təxribat törədərsə və döyüşlər artıq onların ərazilərində davam edərsə, KTMT dərhal buna reaksiya verəcək, yəni Ermənistanın xeyrinə. Amma sən saydığını say, gör fələk sənin üçün nə sayır...

### KTMT Ermənistanın müraciətinə cavab verib: "Operatorlarımız məşğuldur, daha sonra zəng edin"




KTMT ümumiyyətlə, erməni tərəfinin cəhdlərinə reaksiya vermədi və bu gün istər Ermənistan KİV-lərində, istərsə də sosial şəbəkə seqmentlərində əsas çağırışlardan biri də budur ki, Ermənistan bu hərbi alyansı tərk etməlidir.

Beləliklə, Paşinyan hesab edirdi ki, əgər KTMT-ni Azərbaycana qarşı mövqe tutmasına nail olarsa, bu amil onun erməni cəmiyyəti arasında azalmış reytinqinə müəyyən mənada müsbətlik gətirə bilər. Sadəcə, o növbəti dəfə özünün sərsəm və ağılsız siyasətinin qurbanına çevirmiş oldu. Erməni teleqram kanalları isə bu məsələni ifşa etdilər. Açıq-aydın yazdılar ki, erməni tərəfi KTMT-yə müraciət edib və alyans cavab olaraq operatorların məşğul olduqlarını bildirib.

Son məlumatlara görə, təxribatın qarşısı alınarkən düşmənin canlı itkilərinin sayı 8-10 nəfər arasında dəyişir Yerablur məzarlığı artıq onları gözləyir...

**Rövşən RƏSULOV**

# Azərbaycan

## pandemiyaya qarşı səmərəli mübarizə aparan nümunəvi ölkədir



Son üç ildir ki, dünya gündəmində müzakirə olunan əsas məsələlərdən biri yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlıdır. İlk dəfə 2019-cu ilin dekabrında Çinin Uhan şəhərində baş qaldıran və qısa müddətdə dünyanın 200-dən çox ölkəsinə yayılan təhlükəli yoluxucu xəstəlik beynəlxalq aləmdə həyatın nizamını tamam dəyişib. Bir sıra iqtisadi və sosial fəsadlara yol açan pandemiya ayrı-ayrı ölkələri çox ciddi sınaqlarla üz-üzə qoyub və qarşıya yeni çağırışlar çıxarıb. Verilən məlumatlara görə, dünyanın 150-dən çox ölkəsi pandemiya səbəbindən artan xərclərini qarşılamaqda çətinlik çəkdiklərini bildirərək kömək üçün Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına müraciət edib. Azərbaycanın adı isə bu siyahıda yoxdur. Güclü iqtisadi potensiala və geniş maliyyə imkanlarına malik olan respublikamız pandemiyaya qarşı müxtəlif istiqamətləri əhatə edən mübarizə tədbirlərini sırf daxili imkanları hesabına həyata keçirir.

### Ölkəmizdə pandemiya ilə mübarizə çərçivəsində görülən ardıcıl və məqsədyönlü tədbirlərin müsbət nəticələri

Azərbaycan dövləti özünün dərinməzmunlu sosial siyasətinə uyğun olaraq hər zaman çətin vaxtlarda vətəndaşlarının yanında olmaq nümunəsi sərgiləyir. Biz dövlətimizin, şəxsən Prezident İlham Əliyevin ölkəmizdə formalaşan və yüksək vətəndaş məmnunluğu yaradan bu gözəl ənənəyə yeni növ koronavirus pandemiyası şəraitində də sadiq qaldığının şahidi oluruq. Azərbaycan dövləti respublikamızda təhlükəli virusa ilk yoluxma faktı qeydə alınandan etibarən pandemiya ilə mübarizə məsələsinə həssas yanaşma sərgiləyir. Ötən dövrdə milli səviyyədə pandemiyaya qarşı mübarizə məqsədilə müxtəlif istiqamətləri əhatə edən Tədbirlər Planı təsdiqlənib və ardıcıllıqla həyata keçirilir. Virusa yoluxma statistikası artdıqda sərt karantinə keçid zərurətə çevrilir. Yoluxma halları azaldıqda isə karantin tədbirləri yumşaldılır, iqtisadi və xidmət subyektlərinin fəaliyyətində açılmalar edilir. Onu da vurğulamaq yerinə düşər ki, respublikamız MDB məkanında COVID-19-a qarşı mübarizəyə ən çox büdcə ayıran ölkələr sırasında yer alır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti zamanı da bildirib ki, 2021-ci il ərzində qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. Azərbaycan uğurla inkişaf etdi və bu gün daha güclü Azərbaycan dünyada tanınır: ”Təsadüfi deyil ki, Qoşulmama Hərəkatına üzv ölkələrin hamısı yekdilliklə Azərbaycanın sədrliyini daha bir il uzadaraq bizə böyük etimad göstərdi. BMT-dən sonra ikinci ən böyük təsisat, 120 üzvü olan təsisat Azərbaycana yekdilliklə bir daha öz dəstəyini ifadə etmişdir... Hesab edirəm ki, bu il COVID-lə mübarizədə yaxşı nəticələr əldə edilib, pandemiya tam nəzarət altındadır. Azərbaycan nadir ölkələrdəndir ki, bu sahədə vəziyyət qəbulediləndir. Eyni zamanda, aparılan genişmiqyaslı peyvəndlənmə siyasəti, peyvəndlənmə işləri bizə kömək göstərir. Əhalinin təxminən 50 faizi artıq 2 doz peyvənd alıb. 18 yaşdan yuxarı olan əhaliyə gəldikdə isə, bu rəqəm 62 faizə çatır. Ümumilikdə 11 milyondan çox doz vaksin vurulubdur və bu belə ilə biz yeni ildə də ciddi mübarizə aparacağıq”.

### Dünyanın üz-üzə qaldığı ”ədalətsiz vaksin bölgüsü”

Təsadüfi deyil ki, Prezident İlham Əliyev ən yüksək tribunalardan haqlı olaraq dünyanın üz-üzə qaldığı ”ədalətsiz vaksin bölgüsü”nü qabardaraq bu problemi həll etməyə çağırıb. 2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə çıxış edən Azərbaycan Prezidenti bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayıb və Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan etmişdi.

Noyabrın 18-də BMT Baş Assambleyanın 3-cü komitəsində (insan hüquqları və humanitar) sözügedən qətnamə layihəsi müzakirə olunub və səsvermə ilə qəbul edilib. 171 ölkə qətnamənin lehinə səs verib. Heç bir ölkə qətnamənin əleyhinə çıxmayıb. Sənədə münasibətdə bitərəf qalmış 7 ölkədən biri isə regionda ən az peyvəndləmə səviyyəsinə malik Ermənistandır. Qətnamə dekabr ayında bu dəfə artıq BMT Baş Assambleyasının plenar sessiyasında qəbul olunub.

Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü ”Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi” adlı qətnamənin 2021-ci ilin mart ayında yekdilliklə qəbul olunması dünya ölkələrinin Azərbaycana verdiyi dəyərdir. Onu da xatırladaq ki, Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları etməsi, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi ayırması, bu yaxınlarda dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərməsi birbaşa dövlət başçısının təşəbbüsüdür. Bütün bunların fonunda Azərbaycan azgəlirli dost ölkələrə yardım edib. Azərbaycan tərəfindən Qırğızıstana humanitar yardım kimi 40 min doza ”AstraZeneca” vaksini göndərilib. Həmçinin, Azərbaycanın Özbəkistandakı səfirliyinin və UNICEF-in bu ölkədəki nümayəndəliyinin dəstəyi ilə COVAX proqramı çərçivəsində ölkəmizdən Özbəkistana 50 min doza ”AstraZeneca” vaksini çatdırılıb.

Beləliklə, dünya bir daha şahid oldu ki, Azərbaycan ağır pandemiya dövründə real təşəbbüskar ölkələrin önündə gedib.

### Əhaliyə vacib vaksin ÇAĞIRIŞI

Azərbaycan Respublikasında ”COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir. Koronavirusun daha yoluxucu ”Delta” ştamminin gündəmdə olması virusla daha ciddi mübarizə aparılmasını zəruri edir. Bundan əlavə mövsümlə əlaqədar havanın dəyişməsi də epidemiyanın daha geniş yayılması riskini artırır. Digər tərəfdən koronavirusa qarşı istifadə olunan peyvəndlərin effektinin müəyyən müddətdən sonra azaldığı da araşdırmalarla sübuta yetirilib. Xəstəliyə qarşı immuniteti artırmaq üçün 3-cü (buster) dozanın vurulması ehtiyacı yaranır. Qeyd edək ki, Türkiyə, Çin, Avstriya, Belçika, Finlandiya, Macarıstan, Rusiya, İspaniyada, İsveçrədə də artıq 3-cü gücləndirici doza vaksinasiyaya start verilib.

Son elmi tədqiqatların nəticələrini və COVID-19 virusunun mutasiya uğramasını nəzərə alaraq. Səhiyyə Nazirliyi hər 2 doza vaksin almış risk qrupuna daxil olan vətəndaşları, xroniki xəstəliyi olanları, bütün tibb işçilərini və yaşı 50-dan yuxarı olan əhalini 3-cü doza (”buster” doza) ilə peyvəndlənməyə çağırır.Bunu Milli Məclisin deputatı Sədaqət Vəliyeva açıqlamasında deyib.Sədaqət Vəliyeva bildirib ki, peyvənddən bir müddət sonra maksimuma çatan qorunma səviyyəsi vaxt keçdikcə zəifləyə bilər: ”Buster” doza immunitet reaksiyasını yenidən gücləndirməyi və bununla da peyvəndin effektivliyini artırmağı hədəfləyir. Buster dozanın istifadəsi yüksək risk qrupuna daxil olanlar üçün məqsədəuyğun hesab olunur və əhəmiyyəti daha çoxdur. Bir çox inkişaf etmiş ölkələrin ekspertləri də bildirirlər ki, buster dozanın qəbulundan sonra yan fəsadlar nadir hallarda müşahidə olunur. Bu günə kimi xroniki böyrək xəstəlikləri, hər hansı uroloji və nefroloji problemi olan xəstələrin COVID-19-a qarşı vaksinasiya olunmasına dair heç bir əks göstəriş yoxdur. Uroloji, nefroloji xəstəlikləri olan xəstələrin vaksinasiyasında ciddi problem olmayıb. Yan təsirlər də hər kəsdə olan təsirlərdir. Vaksinasiya nəticəsində əmələ gələn fəsadlar vaksinasiya olmadan xəstəliyə yoluxma nəticəsində yaranan fəsadlardan daha yüngüldür”.

Sədaqət Vəliyeva bildirib ki, dünya ölkələrində də artıq buster dozanın vurulmasına başlanılıb və koronavirusun ştammlarından qorunmaq üçün buster dozanın vurulması tövsiyə olunur: ”Üçüncü doza virusla savaşan anticisimləri daha öncəki dozalardan üç dəfə artıq gücləndirir. Bu anticisimlər koronavirusun ştammlarına qarşı güclüdür. Üçüncü doza virusa qarşı güclü qorumanı bərpa edir. Tədqiqatlara görə buster doza almış şəxslərdə yoluxmadan qorunma 11 dəfə, ağırlaşmalardan qorunma isə 19 dəfə artır”.

”Bu gün artıq bir sıra ölkələrdə artıq 3-cü doza vaksinlər vurulmağa başlayıb”, - deyən Sədaqət Vəliyeva əlavə edib ki, ABŞ-da, Böyük Britaniyada, İsraildə, Türkiyədə, Rusiyada, Çində, Almaniyada, Kanada, Fransa, Macarıstan, İspaniya, İsveçrədə və bir sıra digər ölkələrdə də 3-cü doza vaksinlərin vurulması təklif olunur: ”Qərb ölkələrinin əksəriyyətində 3-cü doza vaksinasiyanın aparılmasının səbəblərindən biri daha yoluxucu olan COVID-19-un ”delta” variantının yeni dalğalara səbəb olmasıdır. Azərbaycanda isə insanların 3-cü doza vaksin vurdurması zərurəti payız fəslində mövsümi xəstəliklərin yayılması, hava dəyişikliyi səbəbindən insanların immun sistemlərinin zəifləməsidir. Bu səbəbdən də buster doza sağlamlığımızın qorunması, COVID-19-un yeni ştamlarına, eləcə də mövsümi viruslara qarşı mübarizədə xüsusi əhəmiyyətə malikdir və onun vurdurulması da vacibdir”.

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, tibb elmləri doktoru Rəşad Mahmudov koronavirus pandemiyasına görə dünyada və Azərbaycanda bundan öncə atılan addımlar və qarşıda bizi gözləyən proseslərlə bağlı açıqlamasında bildirib ki, ətrafımızda insanlardan 100 nəfərdən biri qripələ qarşılaşmaya bilər, hamı qrip infeksiyasını keçirib: ”COVİD-19 kimi virusla da hamımız zaman-zaman qarşılaşacağıq. Bu gün dünya səhiyyə sistemi COVİD-19 virusu ilə bağlı hadisələrə 70-80 faiz nəzarət edə bilir. Kütləvi yoluxmanın gətirəcəyi stress və virusu öyrənməyə görə pandemiyanı effektli nəzarətdə saxlamaq üçün böyük iqtisadi-sosial ziyana baxmayaraq hökumət xeyli insanı evdə saxlamaq qərarı verməyə məcbur oldu.3 ay bundan qabaqkı vəziyyətlə müqayisədə dünyada və ölkəmizdə vəziyyətin qismən yaxşılaşmasının, yumşalma tədbirlərinə keçilməsinin səbəbi pandemiyanın gedişini nəzarərdə saxlamağımız, virusun yoluxma çevrəsini öyrənməyimizdir. İndi bu virusun davranma üsulunu bilirik - COVID-19 sadə qripdə olduğu kimi yayılır, hava yolu təması ilə keçir. Biz bundan mümkün üsullarla qorunmaqla gündəlik həyatımızı davam etdirə bilirik.

İndi ölkəmizdə vəziyyət tam nəzarət altındadır, karantin xəstəxanalarında yataqların 90 faizindən çoxu boşdur, əlavə xəstəxanalar da ayrılır. Amma virus bizimlədir, növbəti dalğa bizim gücümüzdən böyük olarsa, nəzarətdən çıxa bilər. Burada virusun davranma tərzi də nəzərə alınmalıdır, aprel ayında virusa yoluxanlarda ağciyər tutulması 1 faiz olmadığı halda, iyun-iyul aylarında yoluxanların 90 faizində ağciyərdə zədələnmələr oldu. Bunu dərəcəsindən asılı olaraq xəstə hiss etməyə bilərdi. Qorxutmaq üçün demirəm, amma virusun növbəti davranışının necə olacağı da bəlli deyil. Buna görə yüksək dərəcədə ehtiyatlı olmalıyıq. Amma biz əvvəlki qədər qorxub evlərə bağlanmayacağıq. Çünki dünyanın artıq yetərli təcrübəsi var: ehtiyatımızı 5 qat artırmalıyıq, ən yüksək səviyyədə məsuliyyətli olmalıyıq”.

Rəşad Mahmudov daha sonra Ümumdünya Səhiyyə Təşkilatının payızda vəziyyətin daha da pisləşə biləcəyi haqda xəbərdarlığını xatırladıb: ”Virusun insanlarda yaratmış olduğu qorxunu unutmamaqla, uşaqlarımızın adi qripə yoluxacağı zaman keçirəcəyimiz halı düşünərək, bizi nələrin gözləyəcəyinə hazır olmayıq ki, həmin vaxt vahiməyə düşüb stresə düşməyək. Bu payızdan başlayaraq istər peyvənd olsun, istər olmasın - müəyyən qədər rahat nəfəs almaq mümükün olacaq. Növbəti adi qripə yoluxma da COVID-19 və digər virus xəstəlikləri kimi olacaq. Vaxtilə ”Heptatit A” virusundan nə qədər insan həyatını itirib, amma indi belə viruslar davranışını dəyişərək insanın bədənində ona zərər vermədən yaşayır. Virusun yaşaması üçün insana ehtiyacı var. Sadəcə, indi çaşqınlıq var, bunu da virus yaratmayıb. O, belə aqressiv olmamalı idi. Biz virusa müdaxilə etmişik, buna bioloji ehtimallar var. Virusun belə fərqli davranması, ağciyərə, ürək-damar sisteminə qarşı həssaslığı ilə bağlı şübhələrimiz var.

Rəşad Mahmudov ÜST-ün yeni alovlanmalar olduğu zaman hər bir ölkəyə tövsiyələr verdiyini də söyləyib: ”Artıq konkret qərar verildi. Ağır, sərtləşdirilmiş karantin rejimlərinin COVID-19 virusu ilə mübarizədə zərərinin daha çox olduğu sübut olundu. Əslində, bu zərərin çox olduğunu hamı bilirdi. Amma tibbi nöqteyi-nəzərdən faydasına görə sərt karantin təşkil olunurdu. Əvvəlki məhdudiyyətlərin bizim üçün yaratdığı fiziki passivlik də mənfi nəticəsini verdi. Bundan sonra ən ağır, pik hadisələr olsa belə parklarımız bağlanmayacaq. Biz məsafəni gözləməklə, maskadan istifadə etməklə gündəlik həyatımıza davam edə biləcəyik”.

**RƏFİQƏ HÜSEYNOVA**



# Qazaxıstan hadisələrinin arxasında nə dayanır?

**Qazaxıstanda baş verən hadisələri dövlət çevrilişinə cəhd kimi qiymətləndirirəm. Bu sözləri SİA-ya verdiyi açıqlamasında ”Qafqaz: əməkdaşlıq və inteqrasiya” klubunun sədri, politoloq Anar Əliyev deyib.**

Politoloq vurğulayıb ki, bu proseslər daha çox Qərb dairələrinin texnoloqları tərəfindən, Qərb dairələrində hazırlanmış planlar əsasında həyata keçirilirdi.

”Xüsusilə də nəzərə alsaq ki, Qazaxıstanın timsalında son illər ərzində yeni bir maliyyə mərkəzi - İslam Maliyyə Mərkəzi formalaşırdı, məhz həmin İslam Maliyyə Mərkəzinin və eyni zamanda Çin kapitalının Qazaxıstana, Orta Asiya respublikalarına sürətli şəkildə daxil olması Qərb dairələrinin, Qərb dövlətlərinin maraqlarına qətiyyən uyğun deyildi. Eyni zamanda məlumdur ki, MDB-yə və KTMT-yə üzvlüklə, həm də təbii ki, Avrasiya İttifaqı da nəzərə alınmaqla Orta Asiya respublikaları Rusiyanın bir növ nəzarəti altında idi və bu vəziyyət milli təhlükəsizlik konsepsiyalarında Rusiya və Çinə qarşı açıq şəkildə mübarizə aparmağı əsas hədəf olaraq müəyyən edən Qərb dövlətlərinin maraqlarına qətiyyən uyğun deyildi. Bu baxımdan Rusiya və Çin ərtafında yeni bir münaqişə ocağı yaratmaqla Rusiyanı o münaqişə ocağına çəkmək və nəticə etibarilə bu ölkənin zəiflədilməsinə və dünyanın aparıcı dövlətləri sırasından çıxarılmasına nail olmaq istəyirdilər. Eyni zamanda burada başlıca hədəflərdən biri də məhz Çin iqtisadiyyatına vurula biləcək zərbə idi. Çünki, Orta Asiya respublikalarında, xüsusən də Qazaxıstanda Çin maliyyəsi çox mühüm yerə və rola malikdir. Stabil və davamlı inkişafın formulu tapılmış Qazaxıstanda destabilləşməyə, hərbi çevrilişə nail olmaqla, Qazaxıstanı bir növ Suriyaya çevirmək Çin maliyyəsini burada batırmağa, Çin maliyyəsinin böyük problemlərlə üzləşməsinə nail olmaq istəyirdilər.

Bildiyimiz kimi regionların idarə olunmasının bu günə qədər bir neçə metodu geniş istifadə təbiq olunub. Başlıca olaraq ABŞ və müttəfiqləri tərəfindən istifadə olunan iqtisadi asılılıq, uzun illər ərzində Rusiya imperiyası, sonradan SSRİ və indi də Rusiya tərəfindən tətbiq edilən hərbi asılılıq, hərbi müdaxilələrdir və bu müdaxilələr vasitəsi ilə regionların nəzarətdə saxlanılması metodları. Son onilliklər ərzində yeni bir forma, yeni bir model də özünü göstərməkdədir. Bu qarışıq modeldir. Yəni, iqtisadi asılılıqla hərbi müdaxilələrin birləşdirilməsi vasitəsi ilə regionların nəzarətdə saxlanılmasıdır. Bu metodun tətbiqini əyani olaraq Əfqanıstanın, İraqın, Suriyanın, Liviyanın timsalında görmüşük. Oxşar modeli Amerika və Qərbi Avropa müttəfiqləri Qazaxıstanda tətbiq etmək istəyirdi.

Çox yaxşı ki, sosial partlayış, eyni zamanda insanların etiraz mitinqləri kimi qiymətləndirilən bu proseslərin vaxtında qarşısını almaq mümkün oldu və bu proseslərin daha da genişlənərək dövlət çevrilişinin reallaşması ilə yekunlaşmadı. Hesab edirəm ki, Tokayevin KTMT-ni Qazaxıstana dəvət etməsi və qısa müddət ərzində KTMT-nin birləşmiş qüvvələrinin regiona daxil olması qərb dairələrinin bölgədə planlaşdırdığı böyük anarxiya, xaosun qarşısını almış oldu.

Hesab edirəm ki, burada narahatedici yeganə bir məqam Ermənistanın sülhməramlı qüvvələr timsalında orada iştirak etməsidir və bu əslində sülhməramlı missiyanın mahiyyətinə bir ironiyadır. Çünki, terrorçu bir dövlətin sülh yaratma missiyasında iştirakı özü absurd bir haldır və ona görə də çox yaxşı olardı ki, Ermənistanın orada hərbi iştirakı ümumiyyətlə qadağan ediləydi və ya Qazaxıstan rəhbərliyi buna icazə verməyəydi.

Hesab edirəm ki, Qazaxıstanda baş verən hadisələrin əhalinin sosial vəziyyəti, sosial partlayışla heç bir halda əlaqəsi mövcud deyil, əksinə, Qazaxıstanda insanların həyat şəraiti və sosial vəziyyəti digər MDB ölkələri ilə müqaisədə hər zaman yüksək olub. Bu mənada çox kiçik bir insan qrupunu, hətta sürücülərin belə çox kiçik bir hissəsini əhatə edəcək sıxılmış qazın qiymətinin qaldırılmasının belə böyük faciələrə, onlarla, yüzlərlə insanın ölümünə, 100 milyon dollarlarla ölçüləcək maddi zərərə gətirib çıxaracaq bir hadisəyə çevrilməməli idi. Xüsusilə də nəzərə alaq ki, etirazların ilk günündən prezident hökumətəti istefaya göndərərək qiymətlərin endirilməsi ilə bağlı addımlara hazır olduğunu bəyan etmişdi. Fikrimcə, bu proseslərin arxasında dayanan məhz Qərb dövlətləri, Qərb dairələri idi və çox yaxşı haldır ki, həmin dövlətlərinin, eyni zamanda Soros fondu və onun rəhbərinin maliyyələşməsi əsasında planlaşdırılan bu layihə reallaşmadı, həyata keçmədi”, deyə politoloq Anar Əliyev bildirib.

***İnam Hacıyev***



# 2022-ci ilin “Şuşa İli” elan olunması Azərbaycanı dünyaya tanıtmaqda önəmli bir hadisəyə çevriləcək

Prezident İlham Əliyevin 2022-ci ili ”Şuşa İli” elan etməsi bir neçə hədəfə hesablanmış müdrik qərar hər bir azərbaycanlının üreyincə və ona böyük sevinc yaşadan tarixi xəbər oldu. Mədəniyyət paytaxtımız olan, böyük strateji əhəmiyyətə malik Şuşa şəhəri ilə bağlı bu cür qərarın qəbul edilməsi bir sıra hədəflər baxımından müstəsna əhəmiyyət daşıyır. 2022-ci ilin ”Şuşa İli” elan edilməsi Qarabağda sülh və təhlükəsizliyin təmin olunması baxımından böyük əhəmiyyət daşıyacaq. 2020-ci il 8 noyabrda Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin diplomatik, proqmatik siyasəti, Müzəffər Oadumuzun Gücü, Rəşadətli əsgər, zabitlərimizin şücaəti və xalqımızın birliyi, inamı nəticəsində Şuşamız azad olundu. Bu tarix xalqın bütövlük, dəyanət, rəşadət və ləyaqət tarixidir və Azərbaycanın bədənsiz ruhuna ruhun qaytarılması tarixidir, tarixi ədalətin bərpa olunduğu tarixdir. Bu, Azərbaycan gücünün, milli həmrəyliyinin, Prezidentimizin bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacardığının tarixi və sübutudur. Bu haqq yolumuzun tarixi, 28 illik həsrətin yarasına məlhəm qoyulan, bütün Azərbaycan xalqına, qəlbi yaralı bütün şuşalılara yaşam tarixidir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Şuşa şəhərinin azad olunması münasibətilə rəsmi ”İnstagram” səhifəsində etdiyi paylaşımda Azərbaycan xaqlını təbrik etməsi ilə dediyi kimi ”İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur. Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”

Bir sözlə, 1992-ci il may ayının 8-də erməni təcavüzkarları tərəfindən Şuşa işğal olundusa 2020-ci il noyabrın 8-də - 28 ildən sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər, Sarsılmaz, Şanlı Ordumuz, rəşadətli əsgər və zabitlərimizin gücü ilə 28 il həsrətində olduğumuz, Azərbaycanın ürəyi, mirvarisi, o cümlədən bütün Qafqazın mədəniyyət beşiyi olan Şuşa şəhərini düşmən işğalından azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Şəhidlər Xiyabanında xalqa etdiyi müraciəti isə bütün xalqımızın Qarabağ həsrətinə məlhəm oldu. Ali Baş Komandanın tarixi müraciətindən: ”Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Məhz 2022-ci ilin ”Şuşa İli” elan edilməsi ilə bağlı tarixi Sərəncam Prezident İlham Əliyevin Azərbaycan mədəniyyətinə verdiyi növbəti dəyərin bariz nümunəsidir. Sərəncamda deyildiyi kimi, 2022-ci ildə Şuşanın 270 illiyi ilə əlaqədar bir sıra beynəlxalq tədbirlər keçiriləcək. Həmin tədbirlərdə dünyanın bir sıra ölkələrindən nümayəndələr iştirak edəcək ki, bu da Azərbaycan mədəniyyətinin dünyada təbliği baxımından böyük rol oynayacaq. Və bu tədbirlər zamanı Şuşanın qədim tarixi, adət-ənənələri ilə bağlı bir sıra filmlər, videoçarxlar nümayiş olunacaq, sərgilər təşkil ediləcək. Bununla da dünya ictimaiyyəti bir daha Qarabağın əsl sahibinin Azərbaycan olduğuna və erməni yalanlarının dünyada ifşasına şahidlik edəcək. Prezident İlham Əliyev bu qərarı ilə erməni saxtakarlığını dünyaya bir daha nümayiş etdirmiş olacaq.

***SEYFƏDDİN ƏLİYEV,***
***YAP Masallı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən***

# “Nəyə görə başqaları üçün belə şeyləri yazmaq ayıbdır, bizə isə ayıb deyil?”



*Filip Ekozyants*

**Tanınmış erməni etnoqraf tarixçisi və alimi, davamlı olaraq ermənilərin ”Böyük Ermənistan” nağıllarını ifşa edən, buna görə zaman-zaman təqiblərə məruz qalan Filip Ekozyants növbəti fikirləri ilə gündəmə gəlib. O, ermənilərin az qala bütün dünyanın onlara məxsus olması iddialarına hər zaman olduğu kimi həm ironik, həm də düşündürücü fikir bildirib. SİA xəbər verir ki, Facebook səhifəsində sözügedən mövzu ilə bağlı maraqlı paylaşım edən Ekozyants yazıb: ”Vikipediyanı açdım. ”Ərzurum-tarixi Qərbi Ermənistanda olan şəhər...”.**

Təsəvvürümə İtaliya vikipediyasındakı belə bir mətni gətirdim: ”Paris-tarixi Şimali İtaliyada olan şəhər; monqollarda: Moskva-Qərbi Monqolustanda tarixi şəhər; almanlarda: ”Roma-tarixi Qərbi Almaniyada şəhər; İranda: ”Tbilisi, İrəvan, İstanbul-Qərbi Persiyada tarixi şəhərlər”...

Qardaşlar, nəyə görə başqaları üçün belə şeyləri yazmaq ayıbdır, bizə isə ayıb deyil? Axı belə şeyi oxumaq da ayıbdır”, erməni alimi nağıllar quran xəyalpərəst soydaşlarını ifşa edib.

***Rövşən RƏSULOV***

# 2022-ci il

## "Şuşa İli" - Zəfərimizin tarixi təntənəsidir



***HƏMİD PƏNAHOV,* YAP Qazax rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən**

**"Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu". Bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə müraciətində bildirib.**

"Şuşa İli" ilə imzalanan Sərənsamda deyildiyi kimi, Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. 1992-ci il mayın 8-də erməni silahlı birləşmələri tərəfindən işğal olunan Şuşa 29 ildən sonra - noyabrın 8 -də Azərbaycan əsgəri Ali Baş Komandanın rəhbərliyi ilə Şuşanı doğmalarına, doğmalarını da Şuşaya qovuşdurdu. Bununla da Azərbaycan siyasi, hərbi və mənəvi qələbəsini qazandı, həm də müharibənin və münaqişənin taleyinə ciddi təsir göstərdi, Şuşa azad edilən anda Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu.

Bu gün Şuşa şəhərinin də sürətli bərpasına başlanılıb. Bərpa işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Prezident İlham Əliyev bu məsələni şəxsi nəzarətində saxlayır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilib. Artıq işğaldan azad edilmiş Şuşanın yenidən dirçəlməsi istiqamətində möhtəşəm işlər görülür. Onu da qeyd edim ki, Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilib. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət alıb, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

### 2022-ci il Şuşada Böyük Qayıdışın təntənəsi

Bu gün Şuşa artıq bərpa və böyük quruculuq dövrünə qədəm qoyub. 2021-ci il 14 yanvar tarixindən - Prezidentin Şuşa səfərindən etibarən Şuşanın bərpası başlandı və qısa müddət ərzində böyük işlər görüldü. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsi bərpa olundu. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpasına başlanıldı, Bülbülün ev muzeyinin açılışı baş tutdu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin təşəbbüsü ilə ermənilər tərəfindən güllələnmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı. Məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verildi. Şuşanın baş planı təsdiq edildi, yeni yaşayış kompleksinin təməli qoyuldu.

Ulu öndər Heydər Əliyev dəfələrlə bəyan etmişdi ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Prezident, Ali Baş Komandan İlham Əliyev də Vətən müharibəsinin gedişində bəyan etmişdi ki, Şuşasız bizim işimiz yarımçıq olardı. Bu bəyanatlar Azərbaycanın Şuşanın işğalı ilə barışmayacağının əsas göstəricisi idi.

Və 2022-ci ilin "Şuşa İli" elan edilməsi isə müstəsna tarixi, siyasi və mədəni hadisədir. Belə ki, cari il çərçivəsində Şuşada quruculuq işləri daha geniş vüsət alacaq, şəhər bir çox tədbirlərə ev sahibliyi edəcək. Bütün bunlar bizim üçün çox qürurvericidir. Və 2022-ci ilin "Şuşa İli" elan olunması barədə Sərəncamın imzalanması ötən ilin mayında Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi barədə qəbul olunmuş qərarın məntiqi davamı kimi qiymətləndirilə bilər. Dövlətimizin başçısının imzaladığı hər iki sərəncam Şuşa şəhərinin Azərbaycan xalqı üçün müstəsna əhəmiyyət kəsb etdiyini göstərən mühüm tarixi sənədlərdir. 2021-ci il mayın 12-si müqəddəs olan Şuşada - Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının keçirilməsi Azərbaycan mədəniyyətinin dünyaya nümayişidir. Məhz 2022-ci ilin "Şuşa İli" elan olunması bu doğma şəhərimizin daha da çiçəklənməsinə, tamamilə bərpa olunmasına, əvvəlki gözəlliyinin və möhtəşəmliyinin geri qaytarılmasına, yenidən Azərbaycanın mədəniyyət paytaxtına çevrilməsinə təkan verəcək. Həmçinin, sərəncamda deyildiyi kimi, bu ildə Şuşanın 270 illik yubileyi böyük təntənə ilə qeyd olunacaq.

Bir sözlə, 2022-ci ildə Qarabağımızın gözü olan Şuşanın bərpası və yenidən qurulması işi də yeni vüsətlə davam edəcək. Milli-mədəni irsin qorunması prosesinin davamı olacaq. Xalqımız üçün müqəddəs olan bu şəhərə çoxsaylı səfərlər təşkil olunacaq. Şuşa öz tarixi keçmişini qaytaracaq və bütün dünya bu şəhərdə baş verən möhtəşəm hadisələrin şahidi olacaq.

# "20 yanvar

## hərəkatı müstəqillik uğrunda mübarizənin tərkib hissəsidir"




"20 yanvar Azərbaycanın qan yaddaşıdır. Sovet ordusu Azərbaycana daxil olaraq burada qətliam törətmişdilər". Bu fikirləri SİA-ya açıqlamasında deputat Fazil Mustafa bildirib. Onun sözlərinə görə, burada 150-yə yaxın şəhidimiz olub: "Bu hadisəni Azərbaycan xalqı hər il qeyd edir, şəhidlərin ruhuna hörmət əlaməti olaraq hər il 20 Yanvar faciəsi matəm günü kimi qeyd edilir. Bu hərəkat müstəqillik uğrunda mübarizənin tərkib hissəsidir və bu hadisədən sonra Azərbaycan daha qətiyyətlə müstəqilliyin əldə olunması üçün mübarizəyə başlamışdır. Belə hesab edirəm ki, bu tarix yaddaşımızda müstəqilliyin əldə olunmasının ən vacib günlərindən biri kimi qalacaqdır. 20 yanvarda həm də Azərbaycanda çox sayda insan kommunist partiyası üzvlüyündən çıxdılar. Kommunist rejminə qarşı ümumilli nifrət yarandı və bu da Azərbaycan xalqının birləşməsinə səbəb oldu.

Müstəqilliyimizin əldə edilməsində 20 yanvar hadisələrinin çox önəmli rolu oldu. Hər il Şəhidlər Xiyabanında 20 yanvar günü xalqımız şəhidlərin əziz xatirəsinə ehtiram əlaməti olaraq onların məzarlarını ziyarət edirlər. Çox təəssüf ki, o vaxtlar dünya xalqları bu faciəyə SSRİ-nin tərkibində baş verən hadisə kimi baxırdı. Ona görə də Azərbaycana qarşı ədalətli yanaşma olmadı. Azərbaycan xalqı bu dərdi özü çəkdi və özü də sona qədər bu mübarizəni davam etdirdi. İndi biz bütün dünyaya öz qələbəmizdən danışmalıyıq. İşğalçılığa son qoyub öz torpaqlarımızı azad etdiyimizi bütün dünyaya tanıtmalıyıq. 20 yanvar bizim tariximizdir. Tarixi hadisə kimi biz layiqincə qiymət veririk, tanıdırıq. Gələcək nəsillərə bu tariximizi aşılayırıq".

***Abutel İlhamqızı***

## "Müxalifət hər cür yalan və böhtan söyləməklə əhalinin bir hissəsinin narazılığını artırmağa çalışır"

"Azərbaycan müxalifətinin bir hissəsi Qazaxıstanda ilin ilk günlərində başlayan iğtişaşları sevinclə qarşıladı. "Narıncı inqilab"lardan, "Ərəb baharı"ndan istədiyi nəticəni ala bilməyən müəyyən qüvvələr bütün ümidlərini "qazax qışı"na bağladılar. Səbəb aydındır. Həm "Milli Şura", həm AXCP, həm də onlarla eyni mövqedə duranlar anlayırlar ki, normal seçki yolu ilə hakimiyyətə gəlmək imkanları yoxdur". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, müxaliflər arasında nə xalqa ümid verəcək, arxasınca aparacaq xarizmatik lider var, nə də insanları müxalifətə dəstək verməyə həvəsləndirəcək proqramları: "Təbii ki, bu şəraitdə ümid xarici qüvvələrə, onların hərtərəfli yardımı ilə respublikada iğtişaş törətməyə və zorakı vasitələrlə hakimiyyəti ələ almağa qalır. Məhz bu səbəbdən müxalifətin bir hissəsi hər cür yalan, böhtan söyləməklə əhalinin bir hissəsinin narazılığını artırmağa və onların vasitəsilə icazəsiz kütləvi tədbirlər təşkil etməyə çalışır. Həmin qüvvələr onu da anlayırlar ki, bu yolla kifayət qədər qüvvə toplaya bilməyəcəklər. Çünki müxtəlif səbəblərdən narazı olan insanların sayı o qədər çox deyil və iğtişaş törətmək üçün qətiyyən kifayət etməyəcək".

A.Səmədov onu da bildirdi ki, müxalif qüvvələrin əsas ümid yeri yenə də Azərbaycanda sabitliyi pozmaqda, hakimiyyət dəyişikliyində maraqlı olan xarici qüvvələrə qalır: "Onların yardımlarına, ilk növbədə, maliyyə dəstəyinə arxalananlar Qərb dövlətlərinə yarınmağa və onların antiazərbaycan addımlarına heç bir reaksiya verməməyə çalışırlar. Məlumdur ki, ötən ilin sonunda ABŞ prezidenti "Milli müdafiə haqqında Qanun"u imzaladı. Bu qanunda Azərbaycan və Türkiyə 27 sentyabrda hərbi əməliyyatları başlamaqda, müharibə cinayətlərində, "erməni əsirləri" ilə qeyri-insani davranışda, "əsir" erməni qadınlarını cinsi istismara məruz qoymaqda və s. cinayətlərdə günahlandırılır. Bu böhtanlara müxalifət partiyaları etiraz etdimi? Təbii ki, yox. Onlar ağalarına necə etiraz edə bilər ki? Çox təəssüf ki, günümüzün reallığı budur. Hakimiyyət "yanğısı" bəzi müxalif qüvvələrin gözünü elə tutub ki, milli maraqları ayaq altına qoymağa, xalqın və dövlətin mənafeyini öz şəxsi istəklərinə qurban verməyə hər an hazırdırlar".

***Gülyana***

## DİQQƏT: Azərbaycanda quş qripi yayılıb?



"Bəzi ölkələrdən Azərbaycana quş əti məhsulları idxalına qadağa qoyulub. Bu beynəlxalq bir qurumun məlumatı əsasında baş verir". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, bununla bağlı yerli ekspertizalar da keçirilir: "Bu normal bir haldır. Bu yöndə istehlakçılar və xüsusən açıq havada quş saxlayan insanlar bilməlidirlər ki, doğma Azərbaycanımız dünya quşlarının miqrasiya traktoriyasında yerləşir. Hətta xəstə quşlar da Azərbaycanın üstündən uçub başqa ölkələrə gedirlər. Ona görə də açıq havada saxlanan quşlarda böyük problemlər yaşana bilər".

Eyyub Hüseynov sözlərinə belə davam edib: "Açıq havada saxlanılan kənd toyuqlarından insanlara quş qripi xəstəliyi keçə bilər. Açıq havada quş saxlayan insanlara üzümü tutub deyirəm ki, müəyyən müddətdə quşları açıq havadan təcrid etsinlər. Çünki göydə uçan quşların tullantıları ilə yerdəki toyuqların təmasları ola bilər. Beləliklə, quşlar xəstələnə bilər".

"AQTA məsələləri diqqətlə izləyir və müəyyən qadağalar qoyur. Düşünürəm ki, bu quş ətinin bahalaşmasına səbəb ola bilməz. Çünki yerli broyler fabrikləri istehlakçıları kifayət qədər quş əti ilə təmin edirlər".

# Əli Kərimli

## ifşa olunsa da, bəd əməllərindən əl çəkmir

Bu gün siyasi arenada diqqətçəkən maraqlı məqamlardan biri də AXCP və "Milli Şura" deyilən qurumların baş bilənlərinin sosial şəbəkələr üzərindən Qazaxısanda baş verən iğtişaşlara, talanlar, dövlət və xalq üçün utancverici hal hesab edilən qarətlərə haqq qazandırmalarıdır. Həta AXCP sədri Əli Kərimli iğtişaşçılarla eyni mövqedə olduğunu və onları dəstəklədiyini bildirib. Bu isə onu göstərir ki, Ə.Kərimli həm partiyası, həm də Azərbaycan cəmiyyəti üçün çox təhlükəli məxluqdur. Əgər iğtişaşaların törədilməsi üçün mövcud şərait yaransa Ə.Kərimli bu vəziyyətdən öz çirkin məqsədlərini həyata keçirməkdən imtina etməz. Ümumiyyətlə, görünən fakt ondan ibarətdir ki, Ə.Kərimli və onun ətrafında dolaşan trol dəstələri bisavad və dağıdıcı "təfəkkürə" malik olduqlarından milli və dövlətçilik maraqlarına qarşı sərt və dağıdıcı siyasət aparırlar. Xatırlamaq lazımdır ki, bir qədər əvvəl İranın başı əmmaməli molla rejimi ölkəmizə qarşı təhdid və təzyiq siyasəti aparan zaman Ə.Kərimli, C.Həsənli və onların trol dəstələri fars molla rejiminin yanında olduqlarını nümayiş etdirdilər. Təbii ki, Azərbaycanın qəti və sərt mövqeyi İranı diz çökdürdü. Paralel olaraq Azərbaycan hüquq-mühafizə orqanları İranın ölkəmizdəki əlaltılarını zərərsizləşdirdi. Məhz bundan sonra Ə.Kərimli və C.Həsənli sosial şəbəkələrdə İranla qonşuluqdan, əlaqələrin qurulmasının vacibliyindən dəm vurmağa başladılar. Bu arada Ə.Kərimlinin İranpərəst siyasət yürütməsinə qatı müxalifətçi, hal -hazırda Surixdə yaşayan Elbəy Həsənli sərt mövqe bildirib: "İrana bağlı şəbəkənin rəsmi Bakı tərəfindən sıxışdırılması Əli Kərimlini əməlli-başlı narahat edir. Əslində, Əli Kərimli müxalifət lideri kimi bu məsələdə dövlətə dəstək verməlidir. Çünki İrana bağlı bu şəbəkə anti-Azərbaycan məfkurəsinə sahibdir və bizim dövlət olaraq varlığımızı təhdid edir. Əli Kərimli isə İrana məsləhət görür ki, bu şəbəkənin sıradan çıxmasına imkan verməyin, əksinə, şəbəkəni qoruyub saxlamaq üçün Azərbaycanla anlaşın. Əli Kərimli niyə belə deyir? O, hesab edir ki, Azərbaycanda hər hansı bir çaxnaşma yaransa, İrana bağlı şəbəkənin əli ilə ölkəni qarışdırmaq olar. Bu qarışıqlıq üzərindən isə iqtidara gəlmək mümkündür".



### "Odla oynamaqda fayda axtarmağa dəyərmi?"

E.Həsənli Ə.Kərimliyə səhv siyasətindən əl çəkməsi üçün məsləhət verməyi də unutmayır. Bildirir ki, o radikal dinçilərdən siyasi mübarizədə istifadə etmək düşüncəsindən birdəfəlik əl çəksə, yaxşı olar: "Odla oynamaqda fayda axtarmağa dəyərmi? Heç şübhəsiz ki, Azərbaycan olaraq bizə demokratiya lazımdır. Ancaq demokratiya ilə fars millətçiliyinin özəlləşdirdiyi "Qırmızı şiəliyin" sintezi Azərbaycanı fəlakətə sürükləyə bilər".

Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində yaşayan tanınmış bloger İsmayıl Cəlilov Ə.Kərimlini konstruktiv tənqid etdiyinə görə AXCP trolları tərəfindən təhqirlərə məruz qalmasından giley-güzar edib. Bildirib ki, 2 gündür AXCP-nin trolları kanalıma tökülüşüb: "2 gündür ana-ata söyüşlərini ehtiva edən şərhlərini "facebook" və "youtube" səhifələrimdən pozuram. Adi bir tənqidə bu qədər söyüşlə cavab verən qrupa nə deyəsən? Əli Kərimli mənim efirimə gəlmir, çünki kanalımı balaca sayır. Yaxşı, başa düşdük. Mənim 4000 izləyicim çox azdır. Amma kanalım balacadırsa və məni izləyən azdırsa, niyə sənin tərəfdarların bundan qorxur, Əli bəy? Niyə mən səhərdən axşama qədər onların söyüşlərini təmizləməliyəm? Bunlar sənin tərəfdarlarındır. Əli bəy, birmənalı təlimat verin ki, mediaya basqı etmək olmaz, onları çəkindirin. Siz müstəqil media tərəfindən heç də rəğbət qazanmırsınız. Özünüzə lider deyirsinizsə, liderlik edin. Mən nə "CNN" kanalı deyiləm, nə də "Osmanqızı TV". Nədən qorxurlar sizin ardınızca gedən bu məxluqlar? Məndə qorxu yaranır ki, siz hakimiyyətə gəlsəniz, necə cəmiyyət quracaqsınız? Siz hələ müxalifətdəsiniz, görün tərəfdarlarınız nə edir? İqtidara gəlsəniz, jurnalistlərin başına nə oyun açacaqsınız? Budur sizin Azərbaycana dair gələcək vizyonunuz? Mən Azərbaycanda yaşayanda sizin partiyanıza səs vermişəm. Mən inanmırdım ki, müxalifət məni belə alçaq hərəkətlə vuracaq. Siz utanmırsız? Sizə pozitiv yanaşan adamı özünüzə qarşı yönəldirsiniz. Sizin tərəfdarlarınız özünə çoban axtaran bir sürüdür. Əli Kərimli peyğəmbərdir ki, onu tənqid etmək olmaz? Siz özünüzə hansı haqqı tanıyırsız ki, müstəqil mediaya söz atırsız? Mən müxalifətdən belə alçaq hərəkət gözləmirdim. Heç kimdən də üzr istəmirəm. Bisavad sürüsüz, söyüşü belə düzgün yaza bilmirsiniz".

### Cəbhəçilər sosial şəbəkələri söyüş məkanına çeviriblər

Görünən odur ki, Ə.Kərimli və onun trol dəstəsi nəinki cəmiyyət üçün öz ətrafına topladığı partiyadaşları üçün belə ciddi problemə çevrilməkdədir. Onu haqlı tənqid edənlərə hədəfə çevrilir və təhqir olunurlar. Bu baxımdan, Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa bildirib ki, Azərbaycan siyasətində söyüşün başında Ə.Kərimli dayanır: ""Cəmiyyətdə fikir formalaşdırır ki, ondan başqa müxalifət yoxdur. Buna görə də, cəmiyyətin AXCP deyilən qurumdan heç bir gözləntisi yoxdur. Sosial şəbəkələrdə Kərimli tərəfdarları daha aktiv görünürlər. İstənilən insanı çox asanlıqla qaralaya bilirlər. 24 ildən artıqdır ki, bu proses gedir. Çoxsaylı saxta profillər arxasında gizlənən cəbhəçilər sosial şəbəkələri söyüş məkanına çeviriblər".

ADP sədri Sərdar Cəlaloğlu da Ə.Kərimlini siyasətin üz qarası kimi xarakterizə edib: "Əli Kərimli deyir ki, Elçibəy liderimdir. Qeyd edim ki, ölənə qədər Elçibəy onu yaxına buraxmamışdı. Çünki ona sağlığında xəyanət etmişdi. Müxalifətin bu günə düşməsinin baiskarı Ə.Kərimlidir. 2003-cü ildə İsa Qəmbərin namizədliyi məsələsində Əlinin hansı oyunları oynadığını çox gözəl bilirəm. Onun həmin vaxt mənə dediyi bir sözü açıqlayacağam. Demişdi ki, adım satqın kimi çıxdığına görə, sən bütün qüvvələrin İ.Qəmbərin ətrafında birləşməsi ideyasını irəli sür, mən də Etibara təzyiq edəcəm. İ.Qəmbəri dəstəkləməsi üçün onun xahişini yerinə yetirdim. Amma onun xarakteri özünü büruzə verdi. Bax, sən busan".

Bir sözlə, mövcud reallıq ondan ibarətdir ki, Ə.Kərimli siyasətdə olduğunu nümayiş etdirdikcə AXCP -də təlatümlər sənginəyəcək. Hətta səhv, yanlış siyasət bu partiyanı növbəti dəfə parçalanma ilə üz-üzə qoyacağı şübhəsizdir. Ən azı AXCP-nin hansısa digər partiyaya birləşəcəyi ehtimalda yüksəkdir. Yəni proseslər qeyd etdiyim istiqamətdə inkişaf etməkdədir.

**İ.ƏLİYEV**

AKTUAL + ŞƏRH

# Deputat Ermənistanın KTMT xülyalarından danışdı



Ankara isə Türkiyə Silahlı Qüvvələrinin, hər zaman olduğu kimi, bu gün də haqq savaşında Bakının yanında olduğunu bildirib

**"Ermənistan ona himayədarlıq edənlərin, fətva verənlərin dəstəyini hiss etdikcə təxribatlar törətməyə davam edəcək. Hətta təkcə Azərbaycan-Ermənistan sərhədində deyil, ərazilərimizdə də təxribat törətməyə cəhd edə bilərlər. Təəssüf ki, bu gün Azərbaycan ərazisində erməni silahlı qruplaşmalarının müəyyən hissəsi qalmaqdadır. Separatçı cinayətkar qurum hələ də mövcuddur".**

SİA xəbər verir ki, bu barədə mətbuata açıqlamasında millət vəkili Elman Məmmədov bildirib.

Onun sözlərinə görə, Azərbaycan Ordusu hər bir təxribata cavab verir və qarşısını alır: "Ötən gün baş verən erməni təxribatı nəticəsində şəhid olan hərbçimizə də Allah rəhmət, ailəsinə səbir diləyirəm. Ermənistan tərəfi də bir neçə əsgər itirib və yaralılar var. Yəni, onlar düşünməlidirlər ki, bu cür davamiyyətlə onların sonu gələcək. Ermənistan təhriklərə getməməli, düşmənçilikdən əl çəkməlidir. Ermənilər o qədər tərbiyəsiz toplumdur ki, belə çirkin niyyətlərini kənara qoymurlar. Başlarının üzərində yenidən "dəmir yumruq" görmək istəyirlər". Elman Məmmədov hesab edir ki, qarşı tərəfin başları tam əzilməyənə qədər təxribatlara davam edəcəklər və bu baxımdan, daim xam xəyallarla yaşayırlar.

### Elman Məmmədov: "Müxtəlif təxribatlar nəticəsində Azərbaycan Ordusunun Ermənistan ərazisinə daxil olmasına çalışırlar"



Deputat Ermənistanın KTMT-yə bel bağlamasının da nəticəsiz qalacağını vurğulayıb və ermənilər düşünürlər ki, Qazaxıstanda baş verən hadisələrə görə KTMT qüvvələri gəldisə, Ermənistana da gedə bilər: "Yəni, müxtəlif təxribatlar nəticəsində Azərbaycan Ordusunun Ermənistan ərazisinə daxil olmasına çalışırlar. Guya belə olan halda, onlar şivən salıb, KTMT-dən kömək istəyəcəklər. Lakin bu, heç vaxt baş tutmayacaq".

Elman Məmmədov sərhədlərin demarkasiya və delimitasiya olunmadığını xatırladaraq müəyyənləşməmiş sərhədlərə görə ermənilərin planlarının alınmayacağını deyib. "Hətta Azərbaycan onların ərazisinə daxil olsa, bu hadisə baş verə bilməz, çünki bunu vadar edən məhz Ermənistandır. Nəzərə almaq lazımdır ki, sərhədlər tam müəyyənləşdirilməyib. Məsələlər həllini tapdıqdan sonra həmin ərazilərə də Azərbaycan nəzarət edəcək", millət vəkili qeyd edib.

### Azərbaycan MN: "Azərbaycan Ordusunun bölmələri gücləndirilmiş rejimdə ölkəmizin suveren ərazilərini və sərhədlərinin təhlükəsizliyini qoruyur

Xatırladaq ki, Azərbaycanın Müdafiə Nazirliyi də hadisə ilə bağlı sərt bəyanat yayıb və bildirilib ki, Ermənistan tərəfindən iki ölkənin dövlət sərhədi boyunca qəsdən vəziyyətin yenidən gərginləşdirilməsi cəhdlərinin təkrarlana biləcəyini istisna etməyərək Azərbaycan Ordusunun bölmələri gücləndirilmiş rejimdə ölkəmizin suveren ərazilərini və sərhədlərinin təhlükəsizliyini qoruyur.

Söz yox ki, baş verən bu və daha əvvəli bənzər olayların hər biri nəzarətdə saxlanılır və düşmənin təxribatları baş verirsə, qarşı tərəf daha böyük itkilər verməklə rüsvayçı vəziyyəti ilə barışmalı olur. Lakin belə davam edəcəyi halda, 44 günlük müharibədə olduğundan da artıq zərbələrə məruz qala biləcək düşmən başına gələ biləcək ağır fəsadların fərqinə varmır. Varmırsa, yaxud bunu inkar edirsə, təbii ki, şanlı Azərbaycan Ordusu daim öz yerindədir!

### Hulusi Akar: "Türkiyə Silahlı Qüvvələri, hər zaman olduğu kimi, bu gün də haqq savaşında Azərbaycanın yanındadır"

Bu arada, yanvarın 12-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovla Türkiyə Milli Müdafiə naziri Hulusi Akar arasında telefon danışığı olub. Hulusi Akar Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində yanvarın 11-i Ermənistan Silahlı Qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuzun şəhid olması ilə bağlı başsağlığı verib və eyni zamanda Türkiyə Silahlı Qüvvələrinin hər zaman olduğu kimi bu gün də haqq savaşında Azərbaycanın yanında olduğunu bildirib.

**Rövşən RƏSULOV**

# Alternativ enerji erasında Azərbaycanın potensialı

## Prezident İlham Əliyev: “Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var”



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

Dünyada neft-qaz kimi ənənəvi enerji mənbələri tükənmək üzrə olduğundan, həmçinin ənənəvi mineral yanacaqlar ekologiyaya hədsiz ağır zərərin vurduğundan hazırda bütün inkişaf etmiş dövlətlər bu mənbələrindən asılılığı tədricən azaltmaq və gələcəkdə ondan imtina etmək istiqamətində fəaliyyətlərini gücləndiriblər. Fukusimadakı nüvə qəzasından sonra atom enerjisinin taleyi də şübhə altına düşdü. Belə vəziyyətdə alternativ enerji mənbələrindən istifadəni artırmaq məsələsi bəşəriyyətin qarşısında qlobal bir problem kimi dayanır.

### Alternativ enerji dünyada və ölkəmizdə

Konkret sərhədləri və konkret həcmdə bərpa olunmayan ehtiyatlar limiti olan Yer planetinin təbii resursları son 100 ildə daha amansızcasına və daha sürətlə istismar olunur. Hesablamalara görə, əsrin ikinci yarısından etibarən neft-qaz və kömür yataqları tükənməyə başlayacaq. O zamanadək alternativ enerjiyə keçilməsə, bəşəriyyəti ağır günlər gözləyir.

Təbii enerjiü tükənməzlik və bərpaolunma xüsusiyyəti, həmçinin ekoloji baxımdan təmizliyi ilə fərqlənir. Ekoloqların və fiziklərin hesablamalarına görə, alternativ enerji mənbələri bütün bəşəriyyəti istənilən qədər enerji ilə təmin etmək qüdrətindədir.

Hazırda dünyada istehsal olunan enerjinin yalnız 15 faizi alternativ və bərpa olunan enerji mənbələrinin payına düşür. Bu enerjinin isə 79 faizi biokütlənin, 17 faizi suyun, 2 faizi geotermal, 1 faizi günəş və 1 faizi külək enerjisinin payına düşür.

Azərbaycanda da bu sahədə işlər müəyyən işlər görülüb və getdikcə alternativ enerjinin payı artır. Artıq bir neçə ildir ki, ölkəmizdə külək və günəş enerjisindən istifadəyə başlanıb. Lakin hələlik, bu çox zəif haldadır. Halbuki, Azərbaycanın alternativ enerji imkanlar daha çoxdur. Günəş, külək, hidroelektrik stansiyaları potensialı çox yüksəkdir.

### Prezident: 10 min kv.km ərazini ”yaşıl enerji” zonası elan etmişik

SİA-nın məlumatına görə, bunu dünən Prezident İlham Əliyev ”Xızı-Abşeron” Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində çıxış edərkən deyib. Dövlət başçısı bildirib: ”Azərbaycan həm daxili tələbatı tam ödəyir, eyni zamanda, bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Qonşu ölkələrlə bizi birləşdirən yüksəkgərginlikli enerji xətləri bu imkanı bizə yaradır, lazım olarsa, yeni xətlər də çəkilər. Çünki region ölkələrində və eyni zamanda, Avropada elektrik enerjisinə tələbat artır. Bəzi ölkələr nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərar qəbul ediblər, biz, eyni zamanda, kömürlə işləyən elektrik stansiyalarının bağlanması prosesini müşahidə edirik. Eyni zamanda, dünyanın demək olar ki, gündəliyinin ön sıralarında olan ”Yaşıl gündəliyi” də təsdiq edilib və biz öz növbəmizdə işğaldan azad edilmiş əraziləri- 10 min kvadratkilometr ərazini ”yaşıl enerji” zonası elan etmişik. Artıq bir neçə su elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var.

Bir sözlə, bu külək elektrik stansiyasının yaradılması bir çox mənalarda olduqca önəmli və əhəmiyyətli layihədir. Bu, gözəl göstəricidir. Digər potensial investorlar üçün də bir siqnaldır ki, onlar da vaxt itirmədən müəyyən addımlar atsınlar. Onu da bildirməliyəm ki, Azərbaycanın bərpaolunan enerji potensialına dünyanın böyük şirkətləri tərəfindən böyük maraq vardır. Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə aparıcı şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir. Həm ölkəmizdə sabitlik, əmin-amanlıq, ölkəmizin inkişafı ilə bağlı dünyada çox müsbət fikirlər, yəni, həqiqəti əks etdirən fikirlər, siyasətimizin proqnozlaşdırılması və eyni zamanda, güclü sənaye potensialı, iqtisadi müstəqillik, enerji təhlükəsizliyinin təmin edilməsi və hazırlıqlı kadr potensialı var. Yəni, bunlar əsas amillərdir. Bu amillər istənilən investor üçün böyük əhəmiyyət kəsb edir”.

### Külək enerjisi potensialı nə vəd edir?

Dünyada ilk 100 kVt gücndə külək elektrik stansiyası keçmiş Sovet İttifaqında (Krımda) istismar olunub. İndi müxtəlif gücdə və fərqli konstruksiyalarda olan külək mühərrikləri dünyanın bir çox yerlərində və hətta daim küləkli dəniz və okeanlarda da quraşdırılaraq istismar olunur.

Təcrübə göstərir ki, Azərbaycanın bir çox rayonlarında külək enerjisi qurğularının tətbiqinin böyük perspektivi var. Azərbaycan külək enerji resurslarına görə, dünyada bəlkə də 1-cidir. Hətta, külək enerjisindən istifadə olunmasında liderlik edən Almaniyada belə küləyin gücü ölkəmizdə olan qədər deyil. Hesablamalara görə, Azərbaycan 800 MVt-a yaxın illik külək enerjisi ehtiyatına malikdir. Bu ehtiyat ildə təxminən 2,5 milyard kVt/saat elektrik enerjisi deməkdir.

Bu isə öz növbəsində ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə küllü miqdarda tullantıların, o cümlədən ozondağıdıcı olan karbon dioksidin atmosferə atılmasının qarşısının alınması deməkdir. Üstəlik, öz maya dəyərinə görə, külək enerjisi digər alternativ enerji mənbələri ilə müqayisədə daha ucuz başa gəlir.

Külək stansiyaların daha bir üstünlüyü odur ki, o böyük bir sahəni tutmur bu qüllələrin altındakı torpaqdan aqrar və s məqsədlə istifadə etmək mümkündür. Dənizin içində də belə qurğular quraşdırmaq mümkündür və bu halda quru ərazimizdə torpaq sahəsi istifadə olunmur. Xəzərsahili bölgələrimizdə külək enerjisinin çox böyük potensialı var.

### Günəşli respublikanı günəş enerjisi ilə təmin etmək mümkündürmü?

Günəş enerjisi sarıdan da biz şanslı ölkəyik. Hesablamalara görə, Günəş panellərinin 50 dərəcə en dairəsindən cənuba doğru yerləşən regionlarda istifadəsi olduqca əlverişlidir. Bir sözlə, Azərbaycanda ildə 300 günəşli və 270 küləkli günün olmasını nəzərə alsaq demək olar ki, bu regionda külək və günəş energetikasının inkişafı çox perspektivlidir.

Azərbaycanda günəşli saatların miqdarı il ərzində 2400-3200 saatdır. İl ərzində 1m2 yer səthinə düşən günəş enerjisinin miqdarına görə Azərbaycan (1500-2000 kVts) ABŞ, Rusiya, Fransa, Çin kimi ölkələrdən qabaqdadır, bu da günəş enerjisindən istifadənin tətbiqinə sərmayələrin cəlb edilməsinin səmərəlilik meyarlarından biri kimi qiymətləndirilə bilər.

Ölkəmizdə günəşli günlərin sayı 300-dən çoxdur. Günəş enerjisindən istifadənin inkişafı Azərbaycanın bir çox rayonlarında enerji problemini qismən həll edə bilər. Artıq ölkəmizdə bununla bağlı müəyyən pilot layihələr həyata keçirilir. Bəzi binaların damında günəş batareyaları qurulub və enerji təminatı tamamilə bundan alınır.

Sumqayıtda günəş batareyaları istehsal edən zavod öz məhsullarını istehsal edir və onun istehsal imkanlarını artırmaqla respublikanı Günə batareyaları ilə tam təmin etmək olar.

### Su elektrik stansiyaları ekoloji təmiz texnologiyadır

Azərbaycanın ümumi enerji sistemində su elektrik stansiyalarının istehsal gücünün xüsusi çəkisi hazırda 18 faiz təşkil edir. Ölkədə indiyə qədər istifadə edilməmiş hidroenergetika ehtiyatlarının mənimsənilməsi üçün geniş imkanlar var.

Bu istiqamətdə aparılmış tədqiqat işləri nəticəsində Azərbaycandakı çayların tam hidroenerji potensialının 40 mlrd. kVt.s, texniki cəhətdən əlverişli potensialının isə 16 mlrd. kVt.s olduğu müəyyən edilib ki, bunun da 5 mlrd kVt.s kiçik SES-lərin payına düşür.

SES-lərin tikintisi sel sularının tənzimlənməsi, ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalı və yeni suvarma sistemlərinin yaradılması kimi önəmli məsələlərin həllində də mühüm rol oynayır.

Azərbaycanda çaylar üzərində və su təsərrüfatı obyektlərində onlarla kiçik SES yerləşdirmək olar ki, onların da istehsal etdiyi elektrik enerjisi ildə azı 3 mlrd kVts təşkil edə bilər.

Azərbaycanın ümumi enerji sistemində su elektrik stansiyalarının xüsusi çəkisi son illər 11-12 faiz təşkil edir. Qeyd edək ki, hökumət yaxın perspektivdə 50-dən artıq kiçik SES-in tikintisini məqsədəuyğun hesab edir.

İşğaldan azad olunmuş ərazilərdəki dağ çayları və yeni yaradılan su anbarları üzərində SES-lərin qurulması böyük həcmdə əlavə enerji isehsalına gətirib çıxaracaq.

### Geotermal və biokütlə enerjisi potensialı

Yer təkinin istiliyi bir çox ölkələrdə sənaye, kənd təsərrüfatı, məişət və kommunal sahələrdə və təbabətdə geniş istifadə olunur. Enerji istehsalında və istehlakında geotermal enerji mənbələrindən istifadənin üstünlüyü ondan ibarətdir ki, onların tətbiqi iri həcmli maliyyə vəsaiti tələb etmir.

Azərbaycanda sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrinin sürətli inkişafı biokütlədən istifadə etməklə enerji istehsalı üçün yeni imkanlar açır. Ölkədə biomaddələrin böyük mənbələri mövcuddur.

Hər il tullantıların zərərsizləşdirilməsi poliqonlarına 2 milyon tondan çox bərk məişət və istehsalat tullantıları atılır. Bakı və ölkənin iri sənaye şəhərlərində bərk məişət və istehsalat tullantılarının utilizasiya olunması ictimai binaların qızdırılmasındakı çətinliklərin qismən aradan qaldırılmasını təmin etmiş olardı.

Bundan başqa, bioqaz qurğularından kənd təsərrüfatında və ya böyük heyvandarlıq fermalarında istifadə səmərəlidir.Artıq bəzi vətəndaşlarımız bu qurğularda peyindən istifadə edərək qaz və gübrə istehsal edir. Bu, tamamilə zərərsiz, faydalı bir texnologiyadır.

### Azərbaycan post-petrol erasına ciddi hazırlaşmalıdır

Azərbaycanın irihəcmli neft-qaz ehtiyatları olsa da, hesablamalara görə, yeni yataqlar kəşf olunmazsa, uzağı 2050-ci ildən sonra bu ehtiyatlar tükənməyə başlayacaq. Bu isə ölkənin alternativ enerji mənbələrinə keçidini sürətləndirməsini zəruri edir.

Azərbaycan təbii ehtiyatlarına arxayınlaşmayıb alternativ enerji ilə bağlı iri layihələr həyata keçirməlidir. Respublikada bu sahədə ciddi kadr problemi var və onun ən qısa müddət aradan qaldırılması üçün hökumət səviyyəsində tədbirlərin görülməsi zəruridir. Bu sahədə kadrlar yetişdirməli və elmi araşdırmaları dəstəkləməliyik.

Xatırladaq ki, 2010-cu ildə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılıb. Agentliyin yaradılmasında məqsəd Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə ölkənin enerji resurslarından istifadənin səmərəliliyini yüksəltməkdir.

Azərbaycan hər il 20 milyard kVt\saat elektrik enerjisi istehsal etmək üçün təxminən 5 milyard kubmetr təbii qaz və 700 min ton civarında mazut işlədir. Bu isə həm ekoloji, həm iqtisadi problemlər yaradır. Alternativ enerji investisiyalar artırılsa, həm ekologiyamız sağlam qalar, həm də tükənməyən enerji mənbələrinə sahib olarıq.

Azərbaycan enerji ölkəsidir, bu torpağın altı da, üstü də enerji mənbəyidir. Hər halda, tükənən yeraltı enerjilərimizin əvəzinə tükənməz yerüstü enerji ehtiyatlarımızdan yararlansaq daha doğru olar. Çünki bu, daha təhlükəsiz, daha sağlam və ən əsası tükənməz enerjidir...

**Elçin Bayramlı**

SON SƏHİFƏ

Səs

14 yanvar
2022-ci il



# "Real" dünyanın ən yaxşısıdır"

"Real"ın futbolçusu Kərim Benzema İspaniya Superkubokunun yarımfinalında "Barselona"ya qalib gəldikləri matç (3:2) barədə danışıb. Nüfuzlu AS nəşrinin yazdığına görə, 33 yaşlı hücumçu deyib ki, Kataloniya klubu güclü olsa da, Madrid təmsilçisinin qələbəyə layiq idi: "Biz sona qədər oynadıq. Çox çətin idi. "Barselona" çox güclüdür. Bu matç yaxşıdır, Qələbəyə layiq idik. Onlara topu versən, qaytarmırlar. Amma biz ilk dəqiqələrdən mübarizə apardıq. "Real" dünyanın ən yaxşısıdır. Biz qalib gəlməliyik və bu səviyyədə oynamağa davam etməliyik".



# O, sikkə pula basılan ilk Afrikalı qadın oldu

Amerikalı şairə Maya Angelou dörddə bir sikkəlik pula basılan ilk Afrika köklü qadın oldu. SİA xəbər verir ki, BBC-nin xəbərinə görə, Amerika Birləşmiş Ştatlarının Maliyyə Nazirliyi şairə Maya Angelou adına dörddə bir sikkə olan 25 sentlik pul basıb. Sikkələrin dövriyyəyə çıxması ilə tarixdə ilk dəfə bir Afrika mənşəli qadının adı və şəkli sikkədə görünmüş sayılır. Şairə və ictimai xadim Maya Angelou həm də Bil Klintonun Ağ Evdə 1993-cü ildəki andiçmə mərasimində yazdığı şeiri səsləndirən ilk Afrika köklü qadındır. Qeyd edək ki, alim, astronavt, qəbilə şefi, ictimai xadim və aktrisalar da daxil olmaqla, lider qadınların şəkillərinin sikkələrə basılması "American Women Quarters" proqramı çərçivəsində həyata keçirilir. İctimai fəal, şairə və yazıçı Maya Angelou 2014-cü ildə 86 yaşında vəfat edib.

# İftarla imsak arasında nə qədər su içmək lazımdır?



**Türkiyəli dietoloq Hilal Mutlu iftarla sahur və çay arasında 2-2,5 litr su içməyi şiddətlə tövsiyə edib. Publika.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, mütəxəssis oruc tutan şəxslər üçün faydalı məsləhətlər verib:**

"17 saat ac qalan bədən iftarda həm fiziki, həm də mənəvi aclığı öldürmək istəyir. Adi halda bədənin nə qədər qida dəyərinə ehtiyacı varsa, Ramazan ayında da eynidir. 1 stəkan su və 1-2 xurma ilə orucu açdıqdan sonra şorba için və 10-15 dəqiqə fasilə verin. Dovğa və ya soyuq şorbalar gün ərzində ac qalan bədənin ehtiyaclarını ödəmək üçün xeyirdir. Əsas ət yeməklərinin yanında mütləq qatıq, az yağlı xama və ya yüngül salat yeyin yeyin. Kompot şəkərsiz olmalıdır. Qızartma və çox yağlı yeməklər iftar üçün əlverişli deyil. Həftədə iki gün xəmir xörəklərinə üstünlük verin, qalan günlərdə taxıl çörəyindən istifadə edinş çünki orucla birlikdə dəyişən qidalanma qəbizliyə səbəb olur. 30-45 dəqiqə sonra orta tempdə yürüşə çıxmaq lazımdır ki, zəifləyən metabolizm aktivləşsin".

Dietoloqun sözlərinə görə, iftarla imsak rasında mümkün qədər çox su qəbul etmək lazımdır: "Çay və qəhvə suyu əvəz edə bilməz, əksinə sidikqovucu təsir yaradaraq bədənin su ehtiyatını azaldır. İftardan bir neçə sat sonra meyvə, süd və yüngül desertlər yeyilməlidir. 1 stəkan minerallı ayran da gündüz tər yolu ilə orqanizmdən atılan mineralları bərpa etmək üçün yaxşı alternativdir. Şərbət və kremli qənnadı məhsullarını süd desertləri, meyvə və dondurma ilə əvəz edin. İmsakda isə zülal baxımdan zəngin ərzaqlara yer vermək lazımdır. Yumurta, az yağlı pendir, göyərti, taxıl çörəyi və qoz imsak üçün ən yaxşı seçimdir".

# «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN



# Gənclər niyə intihara meyillidir?

Ümumiyyətlə intihar edən və ya buna cəhd edən şəxslər ölmək istədikləri üçün deyil, artıq onlara yaşamaq çətin olduğundan bu yola əl atırlar. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova bildirib. Onun sözlərinə görə, müşahidələr onu göstərir ki, daha çox bu proses gənclər və yeniyetmələr arasında baş verir: "Çünki hansısa bir hadisə və yaxud da atdıqları hər hansısa hərəkət valideynləri tərəfindən birmənalı qəbul edilməz və bağışlanmayacaq kimi qəbul edirlər. Bu zaman da başqa bir çıxış yolunun olmadığını düşünərək bu yola addım atırlar. Əksəriyyət hallarda valideynlərindən öz yaxınlarından çəkinən insanlar kiçik bir səhvlərində belə bu yolu seçirlər. Ümumi olaraq insanların tənqidindən qaçmağa çalışırlar. Təbii ki, səbəblər müxtəlif olur. Əsas səbəblərdən biri digər şəxslər tərəfindən xüsusilə də yaşıdları və yaxud da özlərindən böyük şəxslər tərəfindən təhdidlərə məruz qalırlar. Yenə də ciddi nəzarət altında olan uşaqların həyatında baş verir bu proseslər. Eyni zamanda digər bir səbəb isə asılılıqların olmasıdır. Bura narkotik maddələrdən istifadə, spirtli içkilər, müxtəlif dermanları uzun müddət istifadə etdikdən sonra isə insan artıq özünü idarə edə bilmir. Nəticə etibarilə də intiharlara sürüklənir. Gənclərə və yeniyetmələrə səslənərək demək istəyirəm ki, hər hansısa bir zaman daxilində bizə çarəsiz görünən problemlərin hər birini həll etmək olur. İntihar çıxış yolu deyil".

*Səbinə Hüseynli*


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600